# GƏLƏCƏYİN ƏSAS ÜMİD YERİ



Azalan neft hasilatı fonunda gələcək illərdə qaz gəlirlərimizin artım tempi necə olacaq? İtirilən gəlirlərin bir hissəsini qaz satışından əldə edilən gəlirlə kompensasiya etmək olar? Millət vəkili Vüqar Bayramova görə, qaz neftin azalması nəticəsində gəlirlərimizdə yaranan fərqin bir hissəsini kompensasiya edə bilər.

"Qaz hasilatı artmaqda davam edir. Tabii ki, qaz gəlirləri neft gəlirləri ilə müqayisədə daha çox dalğalanmalara məruz qalır, amma qaz fərqin bir hissəsini kompensasiya edə biləcək potensiala malikdir. Azərbaycan qaz satışından ən yüksək gəlirlərini 2022 və 2023-cü illərdə əldə edib".

SƏHİFƏ 6-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

6 DEKABR ŞƏNBƏ 2025 I № 47 (4248) Qiyməti - 60 qəpik www.kaspi.az





## "MƏDƏNİ İRS VƏ QAYIDIŞ HÜQUQU"

Bakıda keçirilən konfransda Ermənistanda azərbaycanlılara məxsus mədəni irsin vəziyyəti, qayıdış hüququnun beynəlxalq hüquq və mədəni irsin müdafiəsi kontekstində qiymətləndirilməsi müzakirə olunub.

SƏHİFƏ 2-də




## 10 İLLİK SABİTLİYİN "MEYVƏSİ"

Dedollarlaşma bankların gəlirlərini artırmaq üçün əlverişlidir. Mərkəzi Bank çalışır ki, insanlar manata etibar etsinlər, əmanətlərini manatla yatırsınlar. Dedollarlaşma maliyyə sabitliyinə də müsbət təsir göstərir.

SƏHİFƏ 7-də



## RESTORANDA MÜŞTƏRİLƏRİ GÖZLƏYƏN "SÜRPRİZ"

Restoranlarda müştərilərdən alınan servis pulu müştərilərin narazılığına səbəb olur. Türkiyənin bu cür ödənişləri qadağan etməyə hazırlaşdığı bir vaxtda, Azərbaycanda hüquqi boşluqlar qalmaqda davam edir.

SƏHİFƏ 9-da



# AVROPA İLƏ DİALOQDA YENİ ÇALARLAR

Azərbaycan ilə Avropa İttifaqı arasında dialoq uzun müddət Ermənistanla bağlı ərazi mübahisəsinə fokuslansa da, bölgədə sülhün təmin edilməsindən sonra əməkdaşlığın əsas istiqaməti dəyişib. İndi iqtisadi sahələr ön plana çıxıb.

### KANSLER İLHAM ƏLİYEVƏ ZƏNG EDİB

Fridrix Mertslə İlham Əliyev arasında reallaşan telefon danışığında qarşılıqlı əməkdaşlıq məsələlərinə toxunulub. Merts Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb, Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

### TARİXİ QƏLƏBƏNİN YARATDIĞI REALLIQ

Tarixi qələbə bölgədə maraqlı olan bütün tərəflərin prioritetlərinə cavab verir. Lakin qeyd olunan məqamların tam formada reallaşmasını şərtləndirən başlıca amil sülh sazişinin imzalanması və Ermənistanda Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoyulmasına bağlıdır.

SƏHİFƏ 3-də

Kino icması ilə süni intellekt arasında balans

## ƏNƏNƏ İLƏ YENİLİYİN VƏHDƏTİ

"Kino icmasında süni intellektə qarşı müəyyən önyarğı mövcuddur və bəzən bu, qeyri-ciddi qəbul edilir. Bəzi insanlar düşünürlər ki, süni intellektlə çəkilən filmlər ənənəvi filmləri üstələyəcək".



Süni intellektin sürətlə inkişaf etdiyi son illərdə yaradıcı sənayelər, xüsusilə də kino sahəsi tamamilə yeni mərhələyə qədəm qoyur. Azərbaycanda bu istiqamətdə atılan ən diqqətçəkən addımlardan biri də ölkədə və bütövlükdə Qafqaz regionunda ilk dəfə keçirilən süni intellekt əsaslı film festivalıdır. Söhbət "AİAZ" Film Festivalından gedir. Film Festivalının təsisçisi Murad Şükürlü ilə söhbətləşdik.

SƏHİFƏ 8-də



## TABUTUNA SON MİSMAR DA VURULDU

Real fəaliyyəti yaranma məqsədindən uzaq düşən Minsk qrupunun tarixin arxivinə göndərilməsi istiqamətində aparılan fəaliyyət bütün müqavimətlərə baxmayaraq, rəsmi Bakının istədiyi nəticə ilə sonuclandı.

SƏHİFƏ 4-də



## YENİTİKİLİLƏRDƏ YENİDƏN ÇIXARIŞ BÖHRANI

Keçən illərlə müqayisədə Bakıda yenitikililərdə çıxarış alınması müşkülə çevrilib. Ekspertlər bunu həm qaydaların mürəkkəbliyi, həm də MTK-ların bu prosesdə maraqlı olmaması ilə əlaqələndirirlər.

SƏHİFƏ 13-də




## DÜNYANIN ƏN QARLI VƏ SOYUQ PAYTAXTI

Ottava həm qədim memarlığı sevənlər, həm də müasir incəsənətin pərəstişkarları üçün maraqlı şəhərdir. Paytaxt çoxsaylı yaşıl parkları, insanların zövq ala biləcəyi mənzərəli əraziləri, maraqlı ekskursiyaları ilə öyünür.

SƏHİFƏ 15-də



Horovluya növbəti köç reallaşıb

SƏHİFƏ 2-də



İpəkdən toxunan şəhər

SƏHİFƏ 12-də



Xarici borc artır, iqtisadiyyat çökür

SƏHİFƏ 5-də



Almamızın yeni ixrac ünvanları

SƏHİFƏ 11-də



Maşın da var, ehtiyat hissəsi də...

SƏHİFƏ 14-də




## SOCAR Dəməşq Hava Limanını yanacaqla təchiz edəcək

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "UCC Holding" arasında Dəməşq Hava Limanına yanacaq təchizatı üzrə Anlaşma Memorandumu imzalanıb. "Report" bu barədə SOCAR-a istinadən xəbər verir.
Məlumata görə, şirkətlər aeroportu yanacaqla təchiz edəcək və zəruri infrastrukturu təmin edəcək birgə müəssisə yaratmağı nəzərdə tuturlar. Birgə müəssisədə SOCAR-ın rolu yanacaq təchizatı əməliyyatlarına texniki dəstək göstərmək və aviasiya yanacağının təchizatını təmin etmək olacaq.
Bu il sentyabrın 6-da SOCAR və "UCC Holding" Suriyada, həmçinin beynəlxalq enerji bazarlarında uzunmüddətli əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumları imzalayıblar.



## Horovluya növbəti köç reallaşıb

Növbəti köç karvanı Cəbrayıl rayonunun Horovlu kəndinə çatıb, sakinlərə mənzillərin açarları təqdim edilib.
"Report" xəbər verir ki, açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər. Bu mərhələdə Horovlu kəndinə 18 ailə olmaqla 66 nəfər köçürülüb.
Kənddə ailələrin daimi yaşayışını təmin etmək məqsədilə hər cür infrastruktur yaradılıb. Kəndə köçürülən ailələr ölkənin müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# "MƏDƏNİ İRS VƏ QAYIDIŞ HÜQUQU"




**Bakıda bu mövzuda keçirilən beynəlxalq konfransda Ermənistan ərazisindəki azərbaycanlılara məxsus mədəni irsin vəziyyəti, qayıdış hüququnun beynəlxalq hüquq və mədəni irsin müdafiəsi kontekstində qiymətləndirilməsi müzakirə olunub. Müzakirələrdə 60-dan çox ölkədən 100-dən artıq xarici qonaq və yerli ekspert iştirak edib.**

Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcması tərəfindən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfrans keçirilib. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

### MƏDƏNİ İRSİN VƏ TARİXİ YADDAŞIN BƏRPASI

Dövlət başçısının müraciətində bildirilib ki, Ermənistan tarixən Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin maddi və qeyri-maddi mədəni irsini, müqəddəs inanc yerlərini, qəbiristanlıqlarını öz ərazisindən Azərbaycan xalqının izlərini silmək məqsədilə zaman-zaman məhv edib.
Prezident qeyd edib ki, ermənilərin azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlərinin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün lazımi addımlar atılması və beynəlxalq ictimaiyyətin bu məsələdə bizə dəstəyi olduqca əhəmiyyətlidir: "Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir".

### "ERMƏNİSTAN GERİYƏ QAYIDIŞ HÜQUQUNU İNKAR EDİR"

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov bildirib ki, icma son 200 ildə Ermənistan ərazisindən mərhələlərlə qovulan milyonlarla insanı və onların varislərini birləşdirən ictimai təşkilatdır. İcmanın fəaliyyətinin əsas xətti həmin insanların, xüsusilə də 1987-ci ildə başlayan Ermənistan-Azərbaycan münaqişəsinin ilk mərhələsində öz doğma yurdlarından amansız şəkildə qovulan 300 min nəfər qaçqının öz evlərinə dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin etməkdir.
O bildirib ki, bu, həm insan hüquqlarına, həm də beynəlxalq hüquqa əsaslanan haqların bərpasıdır: "Buna görə də biz fəaliyyətimizdə beynəlxalq hüquqa söykənir, qayıdış hüququ ilə bağlı beynəlxalq sənədlərdə təsbit olunmuş prinsiplərin həyata keçirilməsini tələb edirik".
Ə.Ələkbərovun sözlərinə görə, ermənilərin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı törətdikləri fərdi və kollektiv cinayətlərin tarixi 200 il əvvələ gedib çıxsa da, son 100 ildə bu cinayətlər daha da genişlənib və bütün hədləri aşıb. Lakin təəssüf ki, Ermənistan tərəfi bütün bu cinayətlərə görə nəinki hüquqi məsuliyyət daşımaq istəmir, üstəlik, ata-baba yurdundan qovulan insanların geriyə qayıdış hüququnu inkar edir".



Əziz Ələkbərov

## KİMLİYİN QORUNMASI VƏ TARİXİ HƏQİQƏTİN TƏSDİQİ

Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım qeyd edib ki, Qərbi azərbaycanlıların geri dönüşü beynəlxalq insan hüquqlarının fundamental prinsiplərindən biridir. BMT-nin İnsan Hüquqları Ümumdünya Bəyannaməsinin 13-cü maddəsi hər bir insanın öz ölkəsinə qayıtmaq hüququnu açıq şəkildə təsbit edir. Lakin bu hüquq yalnız fiziki qayıdışı nəzərdə tutmur. Həqiqi geri dönüş insanın təkcə yurduna deyil, kimliyinə, yaddaşına, mədəniyyətinə və mənəvi irsinə qovuşması deməkdir.
O bildirib ki, ermənilər tərəfindən zorla öz doğma torpaqlarından çıxarılan Qərbi azərbaycanlıların geri dönüşü, sadəcə, coğrafi hərəkət deyil, ədalətin bərpası, kimliyin qorunması və tarixi həqiqətin təsdiqi deməkdir.
Tədbirdə "Qayıdış hüququ və mədəni irs: hüquqi və mənəvi əsaslar", "Maddi irs: qayıdışın fiziki təməllərinin qorunması", "Qeyri-maddi irs: qayıdışın canlı əsaslarının dirçəldilməsi", "Beynəlxalq əməkdaşlıq: qlobal dəstəyin səfərbər olunması" mövzularında panellər keçirilib. Qeyd edək ki, 60-dan çox ölkədən 100-dən artıq xarici qonaq və yerli ekspertlər müzakirələrdə iştirak edib.

# AVROPA İLƏ DİALOQDA YENİ ÇALARLAR



Azərbaycan ilə Avropa İttifaqı arasında dialoq uzun müddət Ermənistanla bağlı ərazi mübahisəsinə fokuslansa da, bölgədə sülhün təmin edilməsindən sonra əməkdaşlığın əsas istiqaməti dəyişib. İndi iqtisadi sahələr ön plana çıxıb.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Cənubi Qafqazda Azərbaycanın sülh gündəliyinin yaratdığı reallıqlar artıq özünün ilkin nəticələrini verməkdədir. Bakının bölgədə sabitlik, iqtisadi inkişaf və inteqrasiya, kommunikasiyaların açılmasına istiqamətlənən addımları vaxtilə münaqişənin yaratdığı maneələri sıradan çıxarır. Bunun məntiqi nəticəsi olaraq, dünyanın bir çox güc mərkəzləri mövcud beynəlxalq vəziyyət fonunda Cənubi Qafqazın, xüsusilə də Azərbaycanın getdikcə artan əhəmiyyətini xüsusi vurğulayır.

### İQTİSADİ SAHƏLƏR ÖN PLANA ÇIXIB

Bu məqamlar Azərbaycan-Avropa İttifaqı (Aİ), Bakı-Vaşinqton münasibətlərində özünü daha qabarıq büruzə verir. Məlumdur ki, Aİ-nin Azərbaycanın əsas ticarət tərəfdaşı olması Bakının xarici siyasət kursunda Brüsselllə münasibətlərin inkişafını prioritet edir. Lakin beş il əvvəllə müqayisədə bu əməkdaşlıq özündə yeni çalarları birləşdirir.

Almaniya Kansleri Fridrix Mertslə Azərbaycan Prezidenti İlham Əliyev arasında reallaşan telefon danışığında da qarşılıqlı əməkdaşlıq məsələlərinə toxunulub. Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb, Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb. Kansler Fridrix Merts İlham Əliyevi Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib. Göründüyü kimi, Aİ-nin ən böyük iqtisadi gücü ilə reallaşan dialoq da Azərbaycanın Avropa üçün artan marağından xəbər verir.

Yeni prioritetlərin meydana çıxması faktı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Brussels Signal" portalında dərc edilən fikirlərində də öz əksini tapıb: "Azərbaycan ilə Avropa İttifaqı arasında dialoq uzun müddət Ermənistanla bağlı ərazi mübahisəsinə fokuslansa da, bölgədə sülhün təmin edilməsindən sonra əməkdaşlığın əsas istiqaməti dəyişib və iqtisadi sahələr ön plana çıxıb".

## Bakı əməkdaşlığı dərinləşdirməyi təklif edir

Göründüyü kimi, indi Aİ-Azərbaycan əməkdaşlığı hər iki tərəfin maraqlarına cavab verən məqamlar üzərində qurulmaqdadır. Bəs hazırda tərəflər arasında sıx əməkdaşlığı zəruri edən məqamlar nədir?

Təbii ki, ilk növbədə enerji təhlükəsizliyi amili. Azərbaycanın uzun illər Avropanın bu sahədə əsas etibarlı tərəfdaşı olması əsas vurğunu məhz bu amilə yönəldir. Bakının təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, TANAP və TAP kimi layihələri özündə birləşdirən Cənub Enerji Dəhlizi hazırda Aİ üçün strateji əhəmiyyətə malikdir. Bakı bu istiqamətdə Brüssellə əməkdaşlığı daha da genişləndirməyə hazır olduğunun mesajlarını da çatdırır. H.Hacıyev Brüsseldə "EU Today"ə müsahibəsində qeyd edir ki, Azərbaycan Aİ ilə enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı dərinləşdirməyə hazırdır. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa maliyyə institutlarına qaz infrastrukturu məsələlərində daha çox çeviklik göstərmək çağırışlarını da dəstəkləyir.




H.Hacıyev bildirib ki, Trans-Adriatik Boru Kəmərinin və əlaqədar infrastrukturun daha da genişləndirilməsi Avropa tərəfindən "səmimi maraq" və uzunmüddətli müqavilə öhdəliklərinin olması halında mümkün olacaq.

### BƏRPA OLUNAN ENERJİ LAYİHƏLƏRİ

Qarşılıqlı iqtisadi tərəfdaşlıqda digər mühüm məqam bərpa olunan enerji ilə bağlıdır. Azərbaycanın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda təxminən 135 giqavat, dənizdə isə, əsasən Xəzər dənizində, 157 giqavat olaraq qiymətləndirilir. Prezident İlham Əliyev 2030-cu ilə qədər təxminən 6 giqavat bərpa olunan enerji gücünə (günəş və külək elektrik enerjisi) nail olmaq hədəfini elan edib. Artıq planlaşdırılan layihələrin təxminən 10 giqavatını əhatə edən müqavilələr və memorandumlar imzalanıb. Bu mənbələrdən əldə ediləcək elektrik enerjisinin Avropaya nəqli ilə bağlı ilkin anlaşmalar da artıq imzalanıb. Sözügedən sahə Aİ üçün də prioritet təşkil etdiyi üçün əməkdaşlıq perspektivləri yüksək qiymətləndirilir. Bunun məntiqi davamı olaraq, Aİ Gürcüstan-Rumıniya "Qara dəniz Interkonnektor Kabeli" layihəsini ümumi maraq doğuran layihə (PCI – Projects of Common Interest) və qarşılıqlı maraq layihəsi (PMI – Projects of Mutual Interest) siyahısına daxil edib. Bu, o anlama gəlir ki, həmin layihələr Aİ-nin "Connecting Europe Facility" (Avropanı Birləşdirən Mexanizm) çərçivəsində maliyyələşmə üçün müraciət edə biləcək və icazə-tənzimləmə proseslərinin sürətləndirilməsi kimi üstünlüklərdən yararlanacaq.

## Tərəflər üçün Zəngəzur dəhlizi prioritetdir

Söz yox ki, Aİ-Azərbaycan münasibətlərində ən mühüm istiqamətlərdən biri tranzit imkanlarının genişləndirilməsi, davamlı və maneəsiz kommunikasiya əlaqələrinin qurulmasıdır. Bakının uzaqgörən addımları sayəsində bu gün Bakı-Tbilisi-Qars dəmiryolu ilə bu əlaqə qurulsa da, mövcud potensial baxımından yetərli sayılmır. Bu səbəbdən indi əsas diqqət Zəngəzur dəhlizinə (TRIPP) yönəlib. Bu məsələdə də tərəflərin maraqları üst-üstə düşür. H.Hacıyevin açıqlamalarına diqqət edək: "Zəngəzur dəhlizi Avrasiyanın nəqliyyat mənzərəsinin kökündən dəyişməsinə təsir göstərəcək. Bakı Avropa İttifaqını bu yeni nəqliyyat sisteminin bir hissəsi kimi görmək istərdi. Bu dəhliz Azərbaycanın sülhə nail olmaq strategiyasının praktik komponentidir".

Layihə Brüsselin də xüsusi maraq dairəsindədir. Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos bu günlərdə bildirib ki, Aİ TRIPP layihəsində mümkün iştirakı mövzusunda ABŞ, Azərbaycan və Türkiyə ilə danışıqlar aparır.

Göründüyü kimi, tarixi qələbə tək Azərbaycan və Ermənistan üçün yox, həm də bölgədə maraqlı olan, konstruktiv əməkdaşlıq qurmaq istəyən bütün tərəflərin prioritetlərinə cavab verir. Lakin qeyd olunan məqamların tam formada reallaşmasını şərtləndirən başlıca amil sülh sazişinin imzalanması və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına birdəfəlik son qoyulmasına bağlıdır.




# TABUTUNA SON MİSMAR DA VURULDU

**ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması cari ilin ən mühüm siyasi-diplomatik hadisələrindən biri hesab olunur. Çünki atılan addım “Cənubi Qafqazın taleyi region dövlətləri tərəfindən həll edilməlidir” prinsipinin beynəlxalq miqyasda qəbul olunmasını təmin edir.**

RASİM MƏZAHİROĞLU

Real fəaliyyəti yaranma məqsədindən uzaq düşən ATƏT-in Minsk qrupunun tarixin arxivinə göndərilməsi istiqamətində aparılan ardıcıl fəaliyyət bütün müqavimətlərə baxmayaraq, rəsmi Bakının istədiyi nəticə ilə sonuclandı. İkinci Qarabağ müharibəsindən sonra Minsk qrupunu yenidən dirçəltmək istəyənlər siyasi şahmat taxtasında ustad gedişləri ilə mat vəziyyətinə salındı.

### MİNSK QRUPU SƏHİFƏSİ BİR DAHA AÇILMAYACAQ

Artıq tarixin Minsk qrupu səhifəsi bir daha açılmayacaq. Bu müvəffəqiyyətin əldə edilməsinə aparan yol kifayət qədər nahamar olsa da, Azərbaycan onu qətiyyəti, əzmi ilə uğurla keçdi. Xatırladaq ki, 1992-ci ildə yaradılan Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün nəzərdə tutulmuş vasitəçilik mexanizmi olsa da, fəaliyyəti dövründə heç bir real nəticə göstərə bilmədi, daha çox status-kvonun saxlanmasına xidmət etdi. Məhz bu səbəbdən onun fəaliyyəti Azərbaycanda haqlı olaraq, tənqid predmetinə çevrildi. Amma Minsk qrupu bu tənqidlərdən faktiki olaraq, heç bir nəticə çıxarmadı, əksinə, həmsədrlər turistik səfərlərini davam etdirdi, münaqişənin həlli istiqamətində bəzən beynəlxalq hüquq normalarına zidd təkliflər irəli sürməkdən belə utanmadılar.

Minsk qrupunun ABŞ-dan olan keçmiş həmsədri Riçard Hoqlandın etirafları da çox şeyin üzərinə işıq saldı: “Biz beşulduzlu hotellərdə, ayrıca yemək otağı və içərisi dolu barı olan və heç bir əlavə xərc tələb etməyən lüks nömrələrdə qalırdıq. Biz olduğumuz şəhərlərdə ən yaxşı restoranlarda yeyirdik. Yaxşı yaşayırdıq və arabir ATƏT bayrağını qaldıraraq Bakı və İrəvanın yadına Minsk qrupunun mövcud olduğunu salırdıq. Amma lap açıq danışsam, çox az iş görülürdü”.

### MÜHARİBƏYƏ GÖRƏ DƏ MƏSULİYYƏT DAŞIYIRDI

Təbii ki, belə onların Qarabağ münaqişəsinin həllində nəyəsə nail olacağını gözləmək də sadəlövhlük olardı və Azərbaycanın danışıqlar prosesinə paralel şəkildə ordusunu gücləndirməsi həm də bundan irəli gəlirdi. Minsk qrupu isə fəaliyyət göstərdiyi 28 il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ən xırda nailiyyətə belə nail ola bilmədi. Bu mənada heç şübhəsiz ki, İkinci Qarabağ müharibəsinə görə Ermənistanla yanaşı, Minsk qrupu da məsuliyyət daşıyır.

Ölkəmiz ərazi bütövlüyünü İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbə ilə bərpa etdikdən sonra Minsk qrupunun vasitəçilik missiyasına da artıq heç bir ehtiyac qalmadı. Lakin Ermənistan da daxil olmaqla, onu ayaqda saxlamağa çalışanlar oldu. Lakin Qarabağ münaqişəsi həllini tapdığından məntiq də, hüquq da Minsk qrupunun ləğvini tələb edirdi. Azərbaycanın yanaşmasını qəbul etmək istəməyənlərə rəsmi Bakı son sözünü dedi: Onun fəaliyyətinə son qoyulmasını Ermənistana sülh müqaviləsinin imzalanmasının əsas şərtlərindən biri kimi irəli sürdü.

## VAŞİNQTON RAZILAŞMALARININ REAL NƏTİCƏSİ



Azərbaycan Prezidenti və Ermənistan Baş naziri arasında ABŞ dövlət başçısının iştirakı ilə avqustun 8-də Vaşinqtonda baş tutan görüşü zamanı ATƏT Minsk prosesi və onunla əlaqəli strukturların bağlanması məqsədilə ATƏT-in Fəaliyyətdə olan Sədrinə birgə müraciətin qəbul olunması barədə razılıq əldə edildi. Az sonra müvafiq birgə müraciət əsasında cari il sentyabrın 1-də ATƏT Nazirlər Şurası tərəfindən qurumun Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olundu. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə 1 sentyabr tarixindən etibarən xitam verildi.

Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə həvalə edildi. Qərarda keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan olundu. Nəhayət, dekabrın 1-də ləğv prosesi rəsmən başa çatdı. Bu, həmin günə təsadüf etdi ki, ondan düz 38 il öncə Qarabağdan olan erməni nümayəndə heyəti Moskvaya gedərək bu ərazinin Ermənistana birləşdirilməsi üçün minlərlə ermənin imzaladığı müraciəti Sov.İKP Mərkəzi Komitəsinin qəbul otağına təqdim etmişdilər. Bundan cəmi iki il sonra, yəni 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti “Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında” qərar qəbul etmişdi. Ermənilər üçün mühüm olan həmin günlərin ildönümündə Azərbaycan Minsk qrupunun tabutuna son mismarı vurdu.

### AZƏRBAYCANIN İRADƏSİNİ BÜTÜN DÜNYA QƏBUL ETDİ

Minsk qrupunun fəaliyyətinin dayandırılması cari ilin ən mühüm siyasi-diplomatik hadisələrindən biri hesab olunur. Çünki onun ləğvi Azərbaycanın diplomatik təşəbbüslərinin mərkəzində duran “Cənubi Qafqazın taleyi region dövlətləri tərəfindən həll edilməlidir” prinsipinin beynəlxalq miqyasda qəbul olunmasını təmin edir. Bu, həm də ölkəmizn ərazi bütövlüyünün bərpasından sonra formalaşan yeni geosiyasi reallığın dünyada qəbul olunması deməkdir. Öz növbəsində bu hal Azərbaycanın yalnız hərbi deyil, həm də siyasi liderliyini təsdiqləyən mühüm nailiyyətdir və milli maraqların təmininin təntənəsi kimi tarixə yazılır.

# XARİCİ BORC ARTIR, İQTİSADİYYAT ÇÖKÜR

2025-ci il İran üçün bütün sahələrdə tənəzzüllə yadda qalacaq. Ölkədə inflyasiya tempi 40%-i keçir ki, bu da ərzaq və enerji daşıyıcılarının qiymətlərinin sürətlə artmasına səbəb olur. Böyük şəhərlərdə yüksək tariflərə və işsizliyə qarşı yerli etirazlar qeydə alınır.



AZƏR NURİYEV



Başa çatmaqda olan ili İran tarixinin bütün sahələrdə - siyasi, hərbi, iqtisadi mənada fəlakət ili kimi xarakterizə etmək mümkündür. İnqilabdan sonrakı 50 il ərzində İran ilk dəfə hərbi fəlakət yaşadı - iyunun 12-də İsrailin hücumu ilə başlayan hərbi əməliyyatlar 24 iyunda atəşkəs razılaşması ilə bitdi. İranın şəhərləri bombalandı, yüksək rütbəli hərbçiləri evlərindəcə öldürüldü. Cavab tədbirləri də adekvat olmadı. Ardınca da, ABŞ-nin İranın nüvə obyektlərini bombalaması ölkənin nüfuzunun, nüvə silahı yaratmaq ambisiyalarının üstündən xətt çəkmiş oldu. İlin əvvəlindən etibarən siyasi böhranlar, toqquşmalar, yüksələn gərginlik, vəzifədən uzaqlaşdırılmalar, impiçmentlər və ictimai narazılıqlar artdı. İranın vitse-prezidenti, tanınmış islahatçı Məhəmməd Cavad Zərifinin istefası, iqtisadiyyat naziri Abdolnaser Hemmatinin impiçmenti, Tehran Ali Məhkəməsində iki yüksək rütbəli hakimin müəmmalı şəkildə qətlə yetirilməsi daxili böhranın nə qədər ciddi olduğunu göstərdi.

## SİYASİ MƏNZƏRƏNİ FORMALAŞDIRAN MÜHÜM MƏQAMLAR

Bütün bunlar İranın gələcək siyasi mənzərəsini formalaşdıran mühüm məqamlardan sayıla bilər. Bu sıraya xalqın narazılığını da əlavə etmək lazımdır. Fevral ayında islam inqilabının ildönümündə Tehranda və digər iri şəhərlərdə keçirilən genişmiqyaslı etirazlar, hökumət qüvvələrinin bu aksiyalara qarşı sərt müdaxiləsi cəmiyyətdə gərginliyin pik həddə çatdığını göstərdi.

Əksəriyyət hesab edir ki, İran bu ilin qışına son onilliklərin ən dərin sosial-iqtisadi böhranı ilə qədəm qoyur. Bu, hətta İran Xarici Kəşfiyyat Xidmətinin hesabatında da öz əksini tapıb. Məlumata görə, İran eyni vaxtda fəlakətli su çatışmazlığı, iqtisadi durğunluq və böyük şəhərlərdə etiraz dalğası ilə üzləşib.



Kaveh Madani

### BANKLAR MÜFLİS OLUR

İranın xarici borcu bir il ərzində əhəmiyyətli dərəcədə artıb. İran Mərkəzi Bankının məlumatlarına görə, ölkənin ümumi xarici borcu 5,38 milyard ABŞ dollarına çatıb. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 17,6% çoxdur. Belə ki, 21 sentyabr 2024-cü il tarixinə olan xarici borc təxminən 4,58 milyard ABŞ dolları təşkil edirdi. Bundan əlavə, İranın ən böyük banklarından biri olan "Ayandeh Bank" özünü müflis elan edib, onun aktivləri dövlətin mülkiyyətinə keçib. Məlumata görə, 2012-ci ildə təsis edilən "Ayandah Bank"ın İran daxilində 260 filialı var idi və orada dörd min nəfər çalışırdı. Lakin son vaxtlar bank borc səbəbindən çətin vəziyyətə düşüb: itkilər təxminən 5,2 milyard ABŞ dollarına, borclar isə təxminən 2,9 milyard ABŞ dollarına çatıb. KİV yazır ki, "Ayandeh bank"dan əlavə, daha beş bank – "Sarmayeh", "Day", "Sepah", "Iran Zamin" və "Melal" da çətinliklərlə üzləşib.



Məsud Pezeşkian

## ÜDM ARTIMI CƏMİ 0,3% TƏŞKİL EDİB

Son illərin ən dərin sosial-iqtisadi böhranını yaşamasının səbəbi ilk növbədə beynəlxalq sanksiyalar səbəbindən neft ixracatının kəskin azalması və iqtisadiyyatın struktur problemləridir. 2025-ci ilin 10 ayı ərzində ÜDM artımı cəmi 0,3% təşkil edib. Bu, faktiki olaraq durğunluğu göstərən bir rəqəmdir. İlin nəticələrinə görə, 2024-cü illə müqayisədə İranın əmtəə və xidmət ixracatı 16%, idxalı isə 10% azalıb. Bu, ölkənin həyati əhəmiyyətli texnologiya və avadanlıqlara çıxışını məhdudlaşdırır və iqtisadiyyatın struktur problemlərini dərinləşdirir. İnflyasiya tempi 40%-i keçir ki, bu da ərzaq və enerji daşıyıcılarının qiymətlərinin sürətlə artmasına səbəb olur. Böyük şəhərlərdə yüksək tariflərə və işsizliyə qarşı yerli etirazlar qeydə alınır ki, bu da siyasi sabitlik üçün əlavə risklər yaradır. Ölkənin parlamenti pul islahatı haqqında qanunu qəbul edib: bir yeni rial 10 min köhnə riala bərabər olacaq.

### SU PROBLEMİ XAOSA GƏTİRİB ÇIXARA BİLƏR

İranın ən ciddi problemlərdən biri də su qıtlığıdır. Su anbarları boşalmaq üzrədir, yağıntı rekord həddə aşağıdır. Hakimiyyət təxminən 10 milyon əhalisi olan paytaxt Tehranda suyu fasilə ilə verməyə başlayıb. Prezident Məsud Pezeşkian xəbərdarlıq edib ki, su böhranı Tehranın bəzi hissələrinin köçürülməsinə səbəb ola bilər. Kanadada yerləşən BMT Universitetinin Su, Ətraf Mühit və Sağlamlıq İnstitutunun direktoru Kaveh Madani hakimiyyətin xəbərdarlığının yetərli olmadığını deyir. "Onların xəbərdarlıq səviyyəsi yerdəki reallıqla müqayisədə çox aşağıdır", – əvvəllər İranın Ətraf Mühit Departamentinin rəis müavini vəzifəsində çalışmış Madani "Radio Fərda"ya bildirib. Onun sözlərinə görə, hökumət çox ehtiyatlı davranır, çünki ictimaiyyətdə stress yaratmaq istəmir. Vəziyyət elədir ki, su ilə bağlı istehlak təchizatı üstələyir, resurslar isə bərpa olunmayacaq dərəcədə tükənir.

Madaninin sözlərinə görə, problemi daha da çətinləşdirən amil cəmiyyətin hakimiyyətə inamsızlığıdır.

Məlumat üçün bildirək ki, İranda su qıtlığı son illər bir neçə dəfə etirazlara səbəb olub. 2021-ci ilin iyulunda Xuzistan vilayətindəki etirazlar qanlı repressiyalarla nəticələnib. Qısamüddətli həll yollarının olmasına baxmayaraq, ekspertlər fəlakəti önləmək üçün əsaslı islahatlar və ciddi siyasi qərarlar gərəkdiyini deyirlər.

İranda 2026-cı ildə də vəziyyətin bu il olduğu kimi, davam edəcəyi proqnoz edilir. Çıxış yolu da sanksiyaların aradan qaldırılması ola bilər ki, buna da ümid yoxdur.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

NEFT HASİLATININ AZALMASI FONUNDA QAZ HASİLATI ARTMAQDA DAVAM EDİR

# GƏLƏCƏYİN ƏSAS ÜMİD YERİ

Neft istehsalımız getdikcə azalır. Buna mütənasib olaraq, neft gəlirlərində də azalma müşahidə edilir. Bunun müqabilində qaz istehsalı və ixracı artır. Maraqlıdır, neft satışından itirilən gəlirlərin bir hissəsini qaz satışından əldə etmək mümkündürmü?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bu ilin yanvar-sentyabr aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) blokundan 10,2 milyard kubmetr qaz hasil edilib. Energetika Nazirliyinin açıqladığı məlumatlarda qeyd edilir ki, 2024-cü ilin ilk doqquz ayı ilə müqayisədə AÇG-dən qaz hasilatı 0,4 milyard kubmetr və ya 4,1% çoxdur. Məlumata görə, bu ilin doqquz ayında Azərbaycanda 38,2 milyard kubmetr təbii qaz hasil edilib. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 1,1 milyard kubmetr və ya 2,96% çoxdur.

Eyni zamanda, bu ilin ilk doqquz ayı ərzində "Şahdəniz" yatağından 20,9 milyard kubmetr qaz hasil olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,4 milyard və ya 1,95% çoxdur. Həmçinin, bu ilin yanvar-sentyabr aylarında "Abşeron" yatağından 1,2 milyard kubmetr təbii qaz hasil olunub (ilik müqayisədə 0,1 9,1% çox).

Maraqlıdır, azalan neft hasilatı fonunda gələcək illərdə qaz gəlirlərimizin artım tempi necə olacaq? Neft satışından itirilən gəlirlərin bir hissəsini qaz satışından əldə edilən gəlirlə kompensasiya etmək mümkündürmü?

### "MAVİ YANACAQ BU POTENSİALA MALİKDİR"

Millət vəkili Vüqar Bayramov "Kaspi"qəzetinə açıqlamasında bildirdi ki, qaz neftin azalması nəticəsində gəlirlərimizdə yaranan fərqin bir hissəsini kompensasiya edə biləcək potensiala malikdir: "2025-ci ilin ilk 10 ayında Azərbaycanda neft hasilatı 4,6% azalsa da, qaz hasilatında 1,7% artım qeydə alınıb. Neft hasilatının azalması fonunda qaz hasilatı artmaqda davam edir. Təbii ki, qaz gəlirləri neft gəlirləri ilə müqayisədə daha çox dalğalanmalara məruz qalır, amma qaz fərqin bir hissəsini kompensasiya edə biləcək potensiala malikdir. Azərbaycan qaz satışından ən yüksək gəlirlərini 2022 və 2023-cü illərdə əldə edib. Xüsusilə həmin illərdə Avropada qiymətlərin yüksək olması gəlirləri artırmış və ilk dəfə qaz satışından əldə olunan gəlirlər neft satışından əldə olunan gəlirlərlə bərabərləşmişdi. Sonrakı dövrdə isə qiymətlərdəki azalma ümumi enerji gəlirlərinin strukturunda neftin üstünlüyünü bərpa etdi. Buna baxmayaraq, qaz hasilatının artması neft satışından itirilmiş gəlirlərin bir hissəsinin kompensasiyasına imkan yarada bilər".

### "ÖLKƏYƏ ƏLAVƏ GƏLİRLƏR GƏLƏCƏK"

Millət vəkilinin sözlərinə görə, qaz ixracı ölkəyə əlavə gəlirlər gətirəcək: "Azərbaycan hazırda 14 ölkəyə qaz nəql edir. Həm hasilat, həm də ixracat göstəricilərində artım müşahidə olunur. Ölkə 2027-ci ildə Avropaya 20 milyard kubmetr qaz nəql etməyi planlaşdırır ki, bu da ixracatın artması ilə bağlı əlavə gəlir deməkdir. Qaz hasilatının artırılması üçün mövcud müasir texnologiyalardan istifadə və yeni yataqların işlənməsi üçün yeni müqavilələrin bağlanması vacibdir".

Dünya bazarındakı qiymətlərə gəldikdə isə, millət vəkili bildirir ki, bu, tələb və təklifdən asılı olaraq müəyyənləşir: "Hazırda qiymətlər 2022-ci illə müqayisədə aşağıdır, lakin qaz strateji məhsul kimi qiymət artımı potensialına malikdir. Yeni perspektivlər həm tələb-təklif, həm də geosiyasi vəziyyət və regiondakı durumdan asılı olacaq. Gözlənilir ki, neft hələlik enerji sərvətlərinin strukturunda aparıcı mövqeyini qoruyub saxlayacaq. Azalmaya baxmayaraq, neft satışından əldə olunan gəlirlər hələ də qazdan yüksəkdir".

### DƏRİN QİYMƏT ŞOKLARI, STRUKTUR DƏYİŞİKLİKLƏRİ

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev deyir ki, 2026-cı ildə qazın qiymətinin artıracağı gözlənilir. Lakin həddindən artıq təklif və dəyişən istehlak strukturu ilə bağlı risklər mövcuddur: "Rusiya boru kəmərləri və LNG ixracına qoyulmuş sərt məhdudiyyətlər bu ssenarini tətikləyir. İlkin proqnozlara görə, 2026-cı ildə qlobal qaz tələbatı 2024-cü illə müqayisədə 1,8% artacaq. Buna əlavə olaraq, Avropaya yönələn Rusiyaya məxsus ixrac güclərinin (Şimal Axını-1, Şimal Axını-2, Yamal–Avropa, Ukrayna QNS üzərindən tranzit) fəaliyyətinin dayandırılması, yeraltı qaz anbarlarının doldurulması zərurəti və Asiya bazarı ilə LNG uğrunda rəqabət 2026-cı ildə Aİ-də təbii qaz qiymətlərinin yüksək qalmasına səbəb olacaq. Bazar iştirakçılarının proqnozuna görə, növbəti ildə Aİ-də təbii qazın orta qiyməti 1000 kubmetr üçün 446 ABŞ dolları səviyyəsində gözlənilir ki, bu da cari ilin orta satış qiymətinə uyğundur".

### NEFT SATIŞINDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR ƏVƏZLƏNƏ BİLƏR?

Mütəxəssis bildirir ki, AÇG və "Şahdəniz" yataqları sənaye istismarına verilən 1 oktyabr 2025-ci il tarixinədək AÇG-dən 240 milyard kubmetr, "Şahdəniz"dən isə 51,5 milyon tona yaxın kondensat və 257,7 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə beynəlxalq müştəri bazarlarına 185,7 milyard kubmetr qaz ixrac olunub: "2020-ci il 31 dekabr tarixindən 2025-ci ilin oktyabr ayına kimi TAP vasitəsilə Avropa bazarlarına 52,5 milyard kubmetr qaz tədarük edilib. Hazırda İtaliya, Yunanıstan və Bolqarıstana qaz tədarükü uzun-müddətli müqavilələr əsasında həyata keçirilir, digər yeddi Avropa ölkəsinə isə müddətli müqavilələrlə qaz tədarükü aparılır. Avropanın qaz bazarına uzunmüddətli qaz tədarükünün davam etdirilməsi və ixrac həcmlərinin artırılması üçün Cənub Qaz Dəhlizinin genişləndirilməsi, Azərbaycanın aktivindəki qaz yataqlarına əlavə investisiyaların yönəldilməsi və qaz tədarükü üzrə yeni uzunmüddətli müqavilələrin bağlanması vacibdir. Bununla yanaşı, Aİ öz iqlim hədəflərinə yenidən baxmalıdır. Azərbaycanın neft-qaz yataqlarının istismar müddətinin uzadılması istiqamətində atılan addımlar yaxın perspektivdə qaz hasilatında artıma, neft hasilatında isə nisbətən sabitliyə imkan yaradacaq. Ölkənin yaşıl enerji siyasəti karbohidrogen ixracını, xüsusilə təbii qaz sahəsində, dəstəkləyəcək. Karbohidrogen ehtiyatları ilə zəngin olan Rusiya və İrana qoyulan məhdudiyyətlər qlobal bazarlarda neft və qaz qiymətlərini dəstəkləyəcək. Nəticədə, qaz ixracı və metan tərkibli qazdan əldə olunan digər neft-kimya məhsullarının satışından gəlirlər neft satışından əldə olunan gəlirləri qismən əvəz edə bilər".



Foto: Firudin Səlimov/Global Photostock



Vüqar Bayramov



Zəfər Vəliyev

# 10 İLLİK SABİTLİYİN "MEYVƏSİ"

Dedollarlaşma bankların gəlirlərini artırmaq üçün əlverişlidir. Mərkəzi Bank çalışır ki, insanlar manata etibar etsinlər, əmanətlərini manatla yatırsınlar. Dedollarlaşma maliyyə sabitliyinə də müsbət təsir göstərir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan iqtisadiyyatında dedollarlaşma meylləri artıb. Bunu Milli Məclisin iclasında Mərkəzi Bankın sədri Taleh Kazımov 2026-cı ilin büdcə zərfinin müzakirəsində deyib. AMB sədri bildirib ki, 2022-ci ildən bəri Mərkəzi Bank tərəfindən həyata keçirilən islahatlar nəticəsində pul siyasətinin ötürücülük mexanizmi gücləndirilib, iqtisadiyyatda dedollarlaşma meylləri artıb: "Rezident fiziki şəxslərin əmanətlərində dollarlaşma səviyyəsi ilin əvvəlindən 2,1 faiz bəndi azalaraq oktyabr ayı nəticələrinə görə 28,5 faizə enib ki, bu da tarixi minimum göstəricidir. Bu dinamika həm manatla bağlı gözləntilərin müsbət olduğunu, həm də milli valyutamıza inamın gücləndiyini təsdiq edir".

## "MƏRKƏZİ BANK ÇALIŞIR Kİ, İNSANLAR MANATA ETİBAR ETSİN"

İqtisadçı Xalid Kərimlinin fikrincə, vətəndaşlar pullarının çox az qismini avro, dollar və digər xarici valyutalarda saxlayırlar, daha çox isə manat üstünlük verirlər: "Mərkəzi Bank dedollarlaşmanı əmanətlərin strukturu ilə müəyyənləşdirir. Yəni insanlar əmanətlərini daha çox manatla yığıb, nəinki dollarla. Səbəblərdən biri manatda gəlirin daha çox olmasıdır. Manatla əmanətdə 11-12 faiz depozit gəliri verilirsə, dollarda bu rəqəm 2,5-3,5-dir. Vətəndaş da görür ki, manatın məzənnəsi uzun müddətdir dəyişmir, sabit olaraq qalır. O səbəbdən də pul itirmək istəmir. Əgər manatla olan depozitin gəlirliliyi azalsa, yaxud dollarla eyniləşsə, o zaman insanlar əmanətlərini daha çox dollarla qoymağa çalışacaqlar. Çünki dollar daha etibarlı valyutadır".

X.Kərimli bildirdi ki, dedollarlaşma bankların gəlirini artırmaq üçün əlverişli vəziyyətdir: "Mərkəzi Bank çalışır ki, insanlar manata etibar etsin. Əmanətlərini manatla yatırsınlar ki, iqtisadiyyatda manatın payı artsın. Çünki banklar depozit olaraq götürdüyü məbləği kredit kimi verir. Banklar da kreditdən əlavə gəlir əldə edir. Dedollarlaşma maliyyə sabitliyinə də müsbət təsir göstərir. Mərkəzi Bankın rıçaqlarını, manatın rolunu artırır. İqtisadiyyat üçün müsbət prosesdir".





Xalid Kərimli

## SABİT MƏZƏNNƏNİN NƏTİCƏSİ

Bakı Ali Neft Məktəbinin biznesin idarə edilməsi kafedrasının müdiri Altay İsmayılovun sözlərinə görə, dedollarlaşmanın səbəbi insanların manata olan inamı və gəlirin daha çox olmasıdır: "Dedollarlaşma iqtisadiyyatda, maliyyə sektorunda, kredit-depozit hesablaşmalarında dollardan istifadənin azalması, onun yerinə milli valyutaya - manata yönəlmə deməkdir. Azərbaycan üçün dedollarmaşmanın səbəbi budur ki, 10 ilə yaxındır valyuta kursunun sabit saxlanmasına hesablanmış tənzimlənən məzənnə rejimi tətbiq olunur. Yəni dollar-manat kursu sabitdir. İkinci səbəb bankların manatla olan depozitlərə daha yüksək faiz təklif etməsidir. Bu fərq dollarla müqayisədə 3-4 dəfə daha çoxdur. Belə olduğu üçün də bank müştəriləri vəsaitlərini təbii ki, milli valyutada saxlamağa daha maraqlı olurlar. Çünki milli valyutadan daha çox faiz gəliri əldə edilir. Dolların kursu da sabit olduğu üçün dollarla əmanət saxlamaq iqtisadi baxımdan rasional seçim olmur".

A.İsmayılovun fikrincə, dedollarlaşmanın maliyyə sabitliyinə təsiri ümumilikdə müsbətdir: "Beynəlxalq sferada, qlobal bazarlarda yaranan dalğalanmalar, valyuta kurslarının dəyişməsi baş verdikdə iqtisadiyyatın bundan təsirlənməsinin az olması deməkdir. Bu, Mərkəzi Bank da monetar siyasəti daha uğurlu həyata keçirmə imkanı əldə edir. Ölkənin xarici valyutadan asılılığı da azalmış olur".

## GƏLƏCƏK VƏZİYYƏT NEFT GƏLİRLƏRİNDƏN ASILIDIR

Müsahibimiz bildirdi ki, gələcəkdə neft gəlirləri dəyişərsə, vəziyyət də dəyişə bilər: "Gələcəkdə proseslərin necə davam etməsi ölkəyə daxil olacaq valyutanın həcmindən asılı olacaq. Dolayısı ilə bu göstərici ölkəyə daxil olan neft gəlirlərindən birbaşa asılıdır. Neft gəlirlərinə isə iki amil - ixrac edilən neftin həcmi və dünya bazarındakı qiymət təsir edir. Əgər gözlənildiyi kimi ixrac edilən neftin həcmi gələcəkdə də azalmağa doğru getsə, bu, gəlirlərin azalmasına səbəb olacaq. Digər tərəfdən, həcmdən asılı olmayaraq hazırkı tendensiya, yəni neft qiymətlərinin ucuzlaşması davam edərsə, bu da ölkəyə daxil olan valyutanın həcminin azalmasına gətirib çıxara bilər. Belə olduğu halda, bazarın gözləntilərinə uyğun olaraq, dollara olan tələbatın artımını müşahidə edə bilərik. Bu tələbin böyüklüyü dollarlaşma meylini artıra bilər".

A.İsmayılovun sözlərinə görə, dedollarlaşma banklar üçün müsbət olsa da, tələbin dəyişməsi fonunda onların çətin vəziyyətdə qalma ehtimalı da var: "Dedollarlaşma həm də bankların xarici valyuta ehtiyatlarına təsir edir. Çünki iqtisadi marağa görə dollarla olan əmanətlər azaldıqda, bu, bankların xarici valyuta ehtiyatlarında azalmaya gətirib çıxara bilər. Neftin dünya bazar qiymətinin dəyişməsi riski ilə üz-üzə qaldıqda, bu hal dollara olan tələbi artıracaq. Dollara tələb artdıqda isə bankların hazırkı xarici valyuta ehtiyatlarının azalması öz mənfi təsirini göstərəcək. Bütün bu deyilənlər baxmayaraq, əgər qlobal və lokal bazarda vəziyyət stabil davam edərsə, bu halda dedollarlaşmanın iqtisadiyyat üçün müsbət bir hal olduğunu demək olar".


Altay İsmayılov

# ƏNƏNƏ İLƏ YENİLİYİN VƏHDƏTİ



**Murad Şükürlü:**
“Kino icmasında süni intellektə qarşı müəyyən önyarğı mövcuddur və bəzən bu, qeyri-ciddi qəbul edilir. Bəzi insanlar düşünürlər ki, süni intellektlə çəkilən filmlər ənənəvi filmləri üstələyəcək, bu isə narahatlıq yaradır”.



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Süni intellektin sürətlə inkişaf etdiyi son illərdə yaradıcı sənayelər, xüsusilə də kino sahəsi tamamilə yeni mərhələyə qədəm qoyur. Bu texnologiyanın imkanları həm istehsal prosesini çevikləşdirir, həm də yeni ifadə formaları yaradır. Azərbaycanda bu istiqamətdə atılan ən diqqətçəkən addımlardan biri də ölkədə və bütövlükdə Qafqaz regionunda ilk dəfə keçirilən süni intellekt əsaslı film festivalıdır. Söhbət “AİAZ” Film Festivalından gedir. Ötən ay kino ilə texnologiyanın unikal sintezini təqdim edən bu platforma yaradıcı şəxsləri və innovativ texnologiyaları bir araya gətirərək gələcəyin kino təcrübələrini nümayiş etdirib. Festivalın fəaliyyəti ilə bağlı “AİAZ” Film Festivalından təsisçisi Murad Şükürlü ilə söhbətləşdik.

Həmsöhbətimiz İncəsənət Universitetinin kinorejissorluq ixtisasını bitirdikdən sonra biznesin idarə edilməsi sahəsində təhsil alıb.

### KİNO İCMASI İLƏ SÜNİ İNTELLEKT YARADICILIĞI ARASINDA BALANS

● **Murad bəy, Qafqazın və regionun ilk süni intellekt əsaslı film festivalının ideyası necə yarandı?**

● Əslində, festival konsepsiyası əvvəldən vardı, amma son üç ildə süni intellektin sürətlə trendə çevrilməsi bizə əlavə stimul verdi. Bu texnologiyanın imkanlarını öyrənərək və tətbiq edərək, film festivalını həm yenilikçi, həm də yaradıcı bir platforma kimi təqdim etmək istədik. Süni intellektin film istehsalına gətirdiyi imkanlar bizə texniki və vizual baxımdan yeni imkanlar açdı.

● **Festivalın əsas məqsədi nədir və süni intellektin kino sahəsində rolu necə təqdim olunur?**

● Festival vasitəsilə yaradıcı şəxsləri və innovativ texnologiyaları bir araya gətirərək gələcəyin kino təcrübələrini nümayiş etdirməyi hədəfləyirik. Məqsədimiz festivalda nümayiş olunan filmlərin tamamilə süni intellekt vasitəsilə hazırlanmasıdır. Konsepsiyamız uzunmüddətli perspektivdə həm ənənəvi üsullarla çəkilmiş, həm də süni intellektlə hazırlanmış filmləri qəbul etməyə imkan verir. Eyni zamanda, qiymətləndirmə prosesində qarşılıqlı yanaşma tətbiq edirik. Süni intellektlə tərtib olunmuş filmləri ənənəvi kino sahəsində təcrübəsi olan jüri, ənənəvi filmləri isə süni intellekt əsaslı jüri qiymətləndirir. Bu yanaşma kino icması ilə süni intellekt yaradıcılığı arasında balans yaratmağa və qarşılıqlı anlaşmanı təşviq etməyə xidmət edir.

> *Süni intellektin yaratdığı vizuallar hələ ki, ənənəvi kino qədər tam qəbul olunmur. İnanıram ki, zamanla bu oturuşacaq.*

### “SÜNİ İNTELLEKTİN BELƏ BİR İDDİASI YOXDUR”

● **Kino icmasında süni intellektə qarşı önyarğı mövcuddur deyirsiniz. Bu önyarğını qıra bilirsiniz?**

● Bəli, kino icmasında süni intellektə qarşı müəyyən önyarğı mövcuddur və bəzən bu, qeyri-ciddi qəbul edilir. Bəzi insanlar düşünürlər ki, süni intellektlə çəkilən filmlər ənənəvi filmləri üstələyəcək, bu isə narahatlıq yaradır. Lakin mən hesab edirəm ki, süni intellektin belə bir iddiası yoxdur. İstər ənənəvi, istərsə də süni intellektlə çəkilən filmlərin öz yeri var. Süni intellekt ənənəvi filmləri əvəz edə bilməz, amma inkişaf etdirə bilər. Gələcəkdə hansı formatın daha geniş yer tutacağını zaman göstərəcək.





Fotolar: Rüfət Mikayılov/Global Photostock

### “SÜNİ İNTELLEKT SAHƏSİNDƏ İŞLƏYƏNLƏRİN ÇOXU KİNODAN UZAQDIR”

● **Süni intellekt kino sənətinə hansı fürsətləri gətirir?**

● Məncə, süni intellektə kino sahəsində iki aspektdən yanaşmaq lazımdır. Birincisi, təşkilati məsələlərdə istifadəsi, ikincisi isə birbaşa kinonun tərtibatı və vizuallaşdırmada tətbiqidir. Təşkilati məsələlərdə süni intellekt bizə inanılmaz sürət və büdcə qənaəti təmin edir. Vizuallaşdırma baxımından isə bu keçid dövrü müxtəlif vizual qrafiklər və texnologiyalar vasitəsilə həyata keçirilir. Lakin süni intellektin yaratdığı vizuallar hələ ki, ənənəvi kino qədər tam qəbul olunmur. İnanıram ki, zamanla bu oturuşacaq. Həm izləyici vərdişləri süni intellektin yaratdığı vizualları qəbul edəcək, həm də texnologiya təkmilləşərək izləyici gözləntilərinə uyğun nəticələr verəcək. Dünyada bu tendensiya müşahidə olunur, lakin Azərbaycanda daha mühafizəkar yanaşma mövcuddur.

● **Sizcə, festivalın yerli süni intellekt kinematoqrafçılarının ortaya çıxmasına təsiri nə olacaq?**

● Bu festivalda mənim üçün əsas məsələ, komanda olaraq Azərbaycanda və eyni zamanda Qafqazda ilk süni intellektə fokuslanmış film festivalını həyata keçirmək idi. Əsas məqsəd isə yerli süni intellekt kinematoqrafçılarının ortaya çıxmasına şərait yaratmaqdır. Məsələn, rəssam, yazıçı və şair dostlarım var. Festivaldan əvvəl onlardan soruşurdum ki, hansı mərhələdə şair ,yaxud yazıçı olmağa qərar verdiniz? Hamısının cavabı eyni oldu. Deyirdirlər ki, müsabiqədə yer tutdum, festivalda qalib gəldim, özgüvənim yarandı və işimə qiymət verildiyini anladım. Süni intellekt sahəsində işləyənlərin çoxu kinodan uzaqdır, bəzilərinin kino təhsili yoxdur. Onları dizayn, fotoqrafiya və digər vizual sahələrdən öz maraqları bu sahəyə gətirib. Biz də onları istiqamətləndirməyə çalışır, göstəririk ki, əlinizdə çox dəyərli alətlər var və bunları kino istiqamətində istifadə etsəniz, dünya bazarına çıxmaq mümkündür. Əminəm ki, beş il ərzində ən yaxşı süni intellekt sənətçiləri Azərbaycandan çıxacaq.

● **Festivalın miqyasını genişləndirmək üçün hansı ölkələri və iştirakçı qrupları hədəf alırsınız?**

● Bu il festivalımıza təxminən 10-a yaxın ölkədən müraciət qəbul etmişdik və iştirakçıların müxtəlif təcrübə səviyyələrindən olmasına diqqət yetirmişdik. Gələcək illərdə isə planımız həm qonşu ölkələrdən, həm də MDB ölkələrindən iştirakçıları festivalımıza cəlb etmək, onların fiziki olaraq tədbirə qatılmasını təmin etməkdir. Bu, yalnız festivalın beynəlxalq miqyasını genişləndirmək deyil, həm də regiondakı süni intellekt kino icmasını bir araya gətirmək məqsədi daşıyır.

TÜRKİYƏDƏ RESTORAN VƏ KAFELƏRDƏ MƏCBURİ SERVİS HAQQI TUTULMASI QADAĞAN EDİLİR

# RESTORANDA MÜŞTƏRİLƏRİ GÖZLƏYƏN "SÜRPRİZ"

Restoranlarda müştərilərdən alınan servis pulu həm yerli müştərilərin, həm də turistlərin narazılığına səbəb olur. Türkiyənin bu cür ödənişləri qadağan etməyə hazırlaşdığı bir vaxtda, Azərbaycanda hüquqi boşluqlar qalmaqda davam edir. Ekspertlər hesab edirlər ki, ölkəmizdə də bu sahədə vahid və şəffaf tənzimləməyə ehtiyac var.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda restorana gedən müştərini artıq təkcə menyudakı qiymətlər yox, çekdə onu gözləyən "sürpriz rəqəmlər" də düşündürür. Süfrəyə gələn yeməklərdən daha tez-tez müzakirə olunan mövzu isə sonda hesaba əlavə edilən "servis haqqı"dır. Bir restoranda bir faiz, digərində beş faiz, bəzi məkanlarda isə daha yüksək məbləğ. Müştəri də çaşqın qalır: bu xidmətin qiyməti harada yazılıb, nə ilə əsaslandırılıb və ümumiyyətlə, buna etiraz etmək haqqı varmı? Ən problemli məqam isə odur ki, bir çox hallarda servis pulu barədə müştəriyə əvvəlcədən məlumat verilmir. Menyuda qeyd olunmayan bu əlavə məbləğ yalnız hesab masaya gələndə ortaya çıxır. Etiraz ediləndə isə adətən eyni cavab səslənir: "Bizdə qayda belədir".

### TÜRKİYƏDƏ LƏĞV EDİLİR

Xidmət turizmi ilə ad çıxarmış Türkiyədə hökumət restoran və kafelərdə məcburi servis haqqı tutulmasını qadağan etməyə hazırlaşır. Türkiyənin Ticarət Nazirliyi qida və içki xidmətləri göstərən restoran, kafe, şirniyyat və bənzər müəssisələrin müştərilərdən xidmət, süfrə rüsumları və ya bənzər adlar altında ödəniş tələb etməsinin qarşısını alacaq yeni qayda tətbiq edəcək. Nazirliyin yaydığı məlumata görə, restoran və kafelər müştərilərdən tarif və qiymət cədvəlində göstərilən qiymətlərdən başqa istənilən adla xidmət haqqı və ya hər hansı digər ödənişi yalnız menyuda əvvəlcədən göstərmək şərti ilə tuta bilərlər. Bu zaman bir sual yaranır. Bəs bizdə servis haqqı ilə bağlı hər hansı nizamlama tətbiq edilə bilərmi?

### "ÖLKƏNİN QONAQPƏRVƏRLİK İMİCİNƏ MƏNFİ TƏSİR EDİR"

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndinin sözlərinə görə, bu kimi məsələlər ölkəmizin imicinə və turizm sektoruna ciddi təsir edir: "Azərbaycanda da bu məsələnin müzakirəyə çıxarılması vaxtıdır. Çünki hazırkı təcrübədə bəzən hesabın üzərinə əvvəlcədən bildirilməyən 5-15 faiz servis haqqının əlavə olunması həm yerli müştərilərdə, həm də turistlərdə narazılıq yaradır. Bu, ölkənin qonaqpərvərlik imicinə də mənfi təsir edir. Bizim mövqeyimiz odur ki, xidmət haqqı yalnız tam şəffaf, əvvəlcədən göstərilən və istehlakçı tərəfindən aydın şəkildə qəbul olunan formada olmalıdır".

S.Dübəndi bildirdi ki, Azərbaycanda servis haqqı məsələsi xüsusi qanunla tənzimlənmir, lakin "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun, "Ticarət, ictimai iaşə və məişət xidmətləri qaydaları", həmçinin Vergi Məcəlləsi bu sahəyə tətbiq olunan əsas hüquqi çərçivəni müəyyən edir: "Bu sənədlər tələb edir ki, ictimai iaşə müəssisələri göstərdikləri xidmətin qiymətini əvvəlcədən, tam və aydın şəkildə müştəriyə təqdim etsin, hər bir ödəniş qəbzdə ayrıca göstərilsin və gizli ödənişə yol verilməsin. Bu normalar servis haqqının ya açıq şəkildə göstərilməsi, ya da ümumiyyətlə ləğv edilməsi üçün hüquqi baza yaradır. Turizm zonalarında isə Dövlət Turizm Agentliyinin normativ aktları vasitəsilə əlavə tələblər - menyuda aydın məlumatlandırma və qiymət şəffaflığı - tətbiq oluna bilər".



Samir Dübəndi

### "İSTEHLAKÇI MƏMNUNİYYƏTİ DƏ YÜKSƏLƏCƏK"

Sədrin fikrincə, servis haqqı məsələsi həll olunarsa, xidmət səviyyəsi və istehlakçı məmnuniyyəti də yüksələcək: "Dövlət qurumları, turizm sektoru və sahibkarlar arasında dialoq başlasa, üç əsas istiqamət üzrə optimal model formalaşdıra bilərik. Birincisi, Türkiyə modelinə uyğun servis haqqının ləğvi və xərclərin qiymətə daxil edilməsidir. İkincisi, əgər saxlanılırsa, menyuda, qəbzdə və girişdə açıq göstərilməsi məcburi olmalıdır. Üçüncüsü, paralel olaraq əmək-haqqı və motivasiya sistemlərinin yenilənməsi vacibdir".






## "SAHİBKAR İSTƏDİYİ QƏDƏR SERVİS HAQQI TƏYİN EDİR"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, qanunvericilikdə bu barədə hər hansı müddəalar nəzərdə tutulmadığından sahibkarlar istədikləri kimi özbaşınalıq edə bilirlər: "İstər yerli vətəndaşlar, istərsə də ölkəmizə gələn qonaqlar bundan şikayət edirlər. Vətəndaş şikayət etdikdə də müvafiq orqanlar bildirirlər ki, sahibkarın şəxsi ərazisidir. Vahid qaydalar yoxdur. Sahibkarlar biznes qurumları üçün yaradılmış toxunulmazlıqdan sui-istifadə edirlər. Bu halda da istehlakçıların hüquqlarını pozurlar. Məsələn, əyləncə, müğənni varsa, bunun xərci də müştəridən çıxılır və bu barədə heç bir məlumat verilmir. Qanun da belə halları qadağa etmir. Dövlət tərəfindən tənzimləmə olmadığı üçün hər sahibkar istədiyi qədər servis haqqı təyin edir".

E.Hüseynov da bildirir ki, əgər restoranda servis haqqı varsa, bu, istənilən halda menyuda qeyd edilməlidir. İstehlakçı öncədən bunu bilməlidir: "Menyuda göstərilibsə, vətəndaş da razılaşıbsa, o halda servis haqqından imtina etməyə heç bir hüququ yoxdur. Əgər öncədən menyuda hər hansı bir servis haqqı qeyd edilməyibsə, amma hesabda qeyd olunubsa, bu, istehlakçı hüquqlarının pozulmasıdır. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi bu kimi məsələlərə nəzarət həyata keçirməlidir. Əgər qanun pozuntusu varsa, cərimələri də yalnız onlar tətbiq edə bilirlər".



Eyyub Hüseynov

# TURİZM FİLMLƏRİ MÜKAFATLANDIRILIB




İl ərzində 50-dən çox ölkədən 4000-dən çox video dünyanın aparıcı turizm və korporativ film festivallarında yarışaraq sənayenin ən məşhur filmləri arasında yer almağa çalışıb.

Portuqaliyanın tarixi Gimarayeş şəhərində Beynəlxalq Turizm Filmləri Festivalları Komitəsinin (CİFFT) 37-ci yekun mərasimi keçirilib. 4-5 dekabr tarixlərində keçirilən tədbir CİFFT və Gimarayeş Bələdiyyəsinin təşkilatçılığı tərəfindən dəstəklənir.

### KİMLƏR QATILIB?

Mərasimdə ən yaxşı dünya turizm filmləri (World Tourism Film Award 2025) mükafatlandırılıb. İki gün davam edən tədbirdə dünyanın müxtəlif ölkələrindən turizm mütəxəssisləri, yaradıcı agentliklərin nümayəndələri, istehsal şirkətlərinin təmsilçiləri, jurnalistlər, eləcə də Birləşmiş Krallıq, İspaniya, Kolumbiya, Mərakeş, Almaniya, Yunanıstan, Polşa, İsveç, İsveçrə və s. ölkələrdən qonaqlar iştirak ediblər.

### 4000-DƏN ÇOX VİDEO

Tarixi Hersoq Braqanza sarayında keçirilən açılış mərasimində çıxış edən təşkilatın direktoru Alexander V.Kammel qonaqları salamlayaraq qeyd edib ki, il ərzində 50-dən çox ölkədən 4000-dən çox video dünyanın aparıcı turizm və korporativ film festivallarında yarışaraq sənayenin ən məşhur filmləri arasında yer almağa çalışıb: "İndi həmin səyahətin nəticələrini qeyd etmək üçün "Portuqaliyanın beşiyi"ndə toplaşmışıq. Dünyanın ən yaxşı turizm filmləri, onları ərsəyə gətirən peşəkarlar mükafat qazanıblar. Bu anları sizinlə bölüşməkdən şərəf duyuruq".

Filmlər beş əsas kateqoriya - şəhər, region, ölkə tanıtımı, turizm məhsulları və turizm xidmətləri üzrə mükafatlandırılıb. Bu il iki xüsusi mükafat - "Turizm Mətbuatı Mükafatı" və "GreenWorking Awards" mükafatları da sahiblərini tapıb.




## "PORTUQALİYANIN BEŞİYİ"

Gimarayeş Bələdiyyəsinin məsləhətçisi İsabel Ferrura bildirib ki, dünya turizm filmlərinin mükafatlandırma mərasiminin bu şəhərdə keçirilməsi təsadüfi deyil: "Bu tarixi şəhər UNESCO-nun Dünya İrsi Siyahısındadır və "Portuqaliyanın beşiyi" kimi tanınır: " Gimarayeş irsin, yaradıcılığın və innovasiyanın bir araya gəldiyi unikal bir mühitdir. Şəhərimizdə ilk dəfə keçirilən bu tədbir bələdiyyə üçün olduqca mədəni, iqtisadi və strateji fürsətdir".

Tədbir çərçivəsində iştirakçılar şəbəkə sessiyalarında, ekspert panellərində iştirak edib, təyinat marketinqi, yaradıcı sənaye və kommunikasiya sahəsində liderlər arasında mübadiləni təşviq edən mədəni təcrübələrə qoşulublar. İsveçrə, Almaniya, Montenegro, Bosniya və Herseqovina, Portuqaliya və s. ölkələrin turizm nümayəndələri təcrübələrini bölüşüb, turizm sənayesində inkişafın yollarından danışıblar.

Mükafatlandırma mərasiminə qatılan qonaqlar üçün tarixi şəhərə mediatur təşkil olunub.

Festivalın ikinci günü mükafatlandırma mərasimində qaliblər elan olunub.



Qeyd edək ki, "Global Media Group"a daxil olan "Kaspi" qəzetinin əməkdaşı, Əməkdar jurnalist Təranə Məhərrəmova mükafatlandırma mərasimində festivalın münsiflər heyətinin üzvü kimi iştirak edib.




# "SOCAR Fiber"dən on milyon dollarlıq investisiya

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki törəməsi olan "SOCAR Türkiye Enerji"nin tərkibinə daxil olan "SOCAR Fiber" şirkəti fiber-optik infrastrukturun modernləşdirilməsinə investisiyalarını genişləndirir.

"Report"un "SOCAR Türkiye Enerji"nin sosial şəbəkələrdə yaydığı məlumata istinadən, bu genişlənmə Türkiyə Sənaye İnkişaf Bankı (Türkiye Sınai Kalkınma Bankası, TSKB) tərəfindən şirkətə təqdim olunan 10 milyon ABŞ dolları məbləğində kredit hesabına həyata keçiriləcək.

Məlumata görə, kredit Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) "TSKB - Dayanıqlı energetika və infrastruktur, 3-cü faza" layihəsi çərçivəsində dörd illik müddətə verilir.

Şirkətdən bildirilib ki, bu maliyyələşdirmə sayəsində "SOCAR Fiber" Türkiyəni şərqdən qərbə birləşdirən öz fiber-optik şəbəkəsini daha dayanıqlı və müasir texnologiyalarla uyğunlaşdırılmış hala gətirəcək.

"Enerji infrastrukturunun yenilənməsi xidmətlərin fasiləsizliyinin artırılmasına, yerli və beynəlxalq operatorlara təqdim edilən rabitə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına, eləcə də Türkiyənin rəqəmsal magistral şəbəkəsinin gücləndirilməsinə yönəlib", - məlumatda qeyd olunur.

2013-cü ildə yaradılan "SOCAR Fiber" artan IP-trafik və yüksək sürətli internet tələbatını ödəmək məqsədi daşıyır. Şirkət 20 şəhər və 67 rayonda xidmət göstərir, Türkiyənin şərqindən qərbinə keçən 1850 km uzunluğunda fiber-optik xətt çəkir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev

Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2495
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ALMAMIZIN YENİ İXRAC ÜNVANLARI

**Bu il Azərbaycanda alma ixracı əhəmiyyətli dərəcədə artıb və yeni bazarlara çıxış əldə edilib. Lakin ixrac hələ də əsasən Rusiyadan asılıdır. Kiçik fermerlərin xarici bazara çıxışında da ciddi çətinliklər qalmaqdadır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycandan xaricə 50,2 milyon ABŞ dolları dəyərində 71,4 min ton alma göndərilib. Bu, 2024-ci ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 46 faiz, kəmiyyət olaraq – 35 faiz çoxdur.

Bu il son 14 ildə ilk dəfə olaraq Qvineya (22,3 min ABŞ dolları dəyərində 22,3 ton) və Liviyaya (220 min ABŞ dolları dəyərində 206 ton) tədarük həyata keçirilib.

Hesabat dövründə Rusiyaya 42,1 milyon ABŞ dolları dəyərində (bir il əvvəlki göstəricidən 45% çoxdur) 61,2 min ton (+39 %), Türkiyəyə 2,8 milyon ABŞ dolları dəyərində 2,8 min ton (1 il bundan əvvəl tədarük olmayıb), Birləşmiş Ərəb Əmirliklərinə 2,3 milyon ABŞ dolları dəyərində (+18 %) 2,4 min ton (-20 %), Qazaxıstana 1,2 milyon ABŞ dolları dəyərində (-10 %) 2,9 min ton (-11 %), Özbəkistana 733 min ABŞ dolları dəyərində (-46 %) 621 ton (-60 %) məhsul satılıb.

## DÜNYADA İXRAC PAYIMIZ BİR FAİZDİR

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynovun sözlərinə görə, 2024-cü ildə ölkəmizdə 293 min tondan artıq alma istehsal olunub. Bunun təxminən 1/3 hissəsi xarici ölkələrə ixrac edilib, qalan məhsul isə daxili bazarda realizə olunub: "Hazırda dünya üzrə alma ixracında Azərbaycanın payı təxminən bir faizə yaxındır. Azərbaycan almasının əsas ixrac bazarı Rusiyadır. İxrac olunan almanın 87.2%-i Rusiyanın, 4,4%-i Qazaxıstanın, 3,9%-i BƏƏ-nin, 2,4%- i Özbəkistanın, 0,6%-i İraqın, 0.1%-i Belarusun, 1.4%-i isə digər ölkələrin payına düşür".

V.Hüseynov bildirdi ki, 2024-cü ilin məlumatlarına əsasən Azərbaycanda alma bağlarının sahəsi 26,3 min hektar olub: "Ümumi alma bağlarının 24.6 min hektarı və ya 93,5%-i bar verən yaşdadır. 2024-cü ildə cəmi alma bağlarının 56,6%-i ənənəvi, 41,4%-i intensiv, 1,9%-i isə superintensiv bağlar təşkil edib. 2024-cü ildə cəmi alma bağlarının 37,9%-i Quba, 18,3%-i Qusar, 8,8%-i Xaçmaz, 5,6%-i Gədəbəy, 3,9%-i Naxçıvan MR, 2,6%-i Qəbələ, 2,2%-i İsmayıllı, 2,0%-i Balakən, 1,9%-i Şabran və 1,6%-i Zaqatala rayonlarının payına düşüb".

## "FERMERLƏRƏ 19 MİLYON MANATDAN ÇOX SUBSİDİYA VERİLİB"

Şöbə müdiri bildirdi ki, Azərbaycanda intensiv alma bağlarının salınması dövlət tərəfindən dəstəklənir: "2020-2024-cü illərdə ölkəmizdə salınan alma bağlarına görə fermerlərə 19 milyon manatdan çox subsidiya verilib. Hazırda müasir intensiv və superintensiv alma bağlarının salınmasına dövlət dəstəyi tədbirləri davam etdirilir. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci il sentyabrın 1-dən 2026-cı il mayın 31-dək salınan alma bağlarının hər hektarına görə fermerlərə 11000 manat subsidiya veriləcək. Naxçıvan Muxtar Respublikasında salınacaq yeni alma bağlarına görə isə veriləcək subsidiya 21000 manat/hektar təşkil edir. Naxçıvan iqtisadi rayonunda dəniz səviyyəsindən 800-1100 metr aralığındakı hündürlükdəki ərazilərdə yerləşən bir torpaq sahəsində (parseldə) və ya bir neçə torpaq sahəsindən (parseldən) ibarət vahid ərazidə dirək sistemi (şpaler) ilə salınan, sahəsi azı iki hektar olan və bir hektara minimum 4000 ədəd sertifikatlı tingin əkildiyi super-intensiv alma bağlarına görə isə 32200 manat/hektar birdəfəlik dövlət dəstəyinin verilməsi qərarlaşdırılıb".

V.Hüseynovun fikrincə, müasir intensiv alma bağlarının salınmasına dövlət dəstəyinin genişləndirilməsi xarici bazarlara rəqabətə davamlı məhsul ixracını artırmağa imkan verir.

## ARTIQ ƏRƏB ÖLKƏLƏRİNİ DƏ ALMA İLƏ BİZ TƏMİN EDİRİK

Aqrar ekspert Eldar Hüseynovun sözlərinə görə, bu il Azərbaycanın alma ixracının artması təsadüfi deyil: "Dünyanın ən böyük alma ixracatçıları Belarus və Türkiyədir. Lakin bu il hər iki ölkədə kifayət qədər alma olmadı. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliklərini, Qətəri alma ilə Türkiyə təmin edirdi. İndi onlarda alma olmadığından Türkiyə iş adamları Azərbaycandan alma alıb o şəkildə ixrac edirlər. Yəni hazırda ərəb ölkələrinə çıxış əldə edirik. Lakin yenə də əsas ixrac bazarımız Rusiyadır. Rusiyaya yaşıl və sarı alma ixrac edirik. Son zamanlar qırmızı alma da ixrac etməyə başlamışıq".

Ekspertin fikrincə, fermerlərin əsas gəliri satışlardan və ixracdandır: "Sertifikatlarımız mövcuddur, qablaşdırmamız yaxşıdır. Lakin kiçik sahibkarlar alma ixrac edə bilmir. 2-3 hektar sahəsi olan sahibkarların buna imkanı yoxdur. Məcburdur 50-100 hektar alma bağı olan böyük sahibkarla ixrac etsinlər". Ekspert hesab edir ki, dekabrda almanın qiyməti yenidən qalxacaq. Sahibkarlar məhsulu yığıb soyuducu anbarlarda saxlayırlar ki, qiymətlər qalxanda daha çox qazanc əldə edə bilsinlər.

## "ORTA VƏ KİÇİK TƏDARÜKÇÜLƏR HƏR ZAMAN ÇƏTİNLİK ÇƏKİRLƏR"

İqtisadçı Pərviz Heydərov da bildirdi ki, Azərbaycanda meyvəçiliklə məşğul olan fermerlərin xarici bazarlara çıxışı ilə bağlı hər zaman problem mövcud olub. Bu, gələcəkdə də davam edəcək: "Böyük sahibkarların çıxışı var. Amma orta və kiçik tədarükçülər hər zaman çətinlik çəkirlər. Çıxış imkanlarımızın məhdud olmasının bir səbəbi də yalnız bir bazara yönəlməyimizdir. Rusiya sanksiyalar altında olduğundan həmin bazar heç də əlverişli deyil. Amma məhsullarımızı təkcə Rusiyaya deyil, Şərq ölkələrinə, Avropaya çıxara bilərik. Bu da tədarükçülərə daha çox gəlir verərdi".

P.Heydərovun fikrincə, soyuducu anbarların olması ixrac problemini həll etmir. Çünki bazara çıxış imkanları əlverişli deyilsə, məhsul soyuducuda da məhv olur".


Vüqar Hüseynov


Eldar Hüseynov


Pərviz Heydərov

TOXUNUŞUNDA TARİX DƏ VAR, SƏNƏTKARLIQ DA, TƏBİƏTİN HARMONİYASI DA

# İPƏKDƏN TOXUNAN ŞƏHƏR

Şəki ipək kimi incə, dağlar kimi möhkəm, halvası kimi şirin, ustalarının əlləri kimi zərifdir. Burada hər küçə bir tarixi danışır, hər sənətkar bir məktəbdir, hər yemək bir dastandır.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Buraya "İpəkdən toxunan şəhər" deyirlər. Onun toxunuşunda tarix də var, sənətkarlıq da, təbiətin harmoniyası da. Hər addımda həm keçmişin hikmətini, həm də bu günün canlı enerjisini hiss edirsən.

Dekabrın 2-3-də Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə media nümayəndələrinin Şəkiyə səfəri də məhz bu ruhu yaşatmaq, Şəkinin daxili turizm imkanlarını göstərmək, bölgədə turistlər üçün yaradılan şəraiti və həyata keçirilən layihələri ictimaiyyətə təqdim etmək məqsədilə təşkil olunmuşdu.

### TƏBİƏTİN QOYNUNDA AQROTURİZM

Səfərin ilk dayanacağı Şəkinin Öyrət kəndində yerləşən "BioGarden" eko-aqro turizm təsərrüfatı oldu. Səkkiz hektarlıq sahəni əhatə edən bağda bizi üç mindən çox meyvə ağacı, geniş arıçılıq təsərrüfatı, balıq gölməçələri və çiçəkli istixanalar qarşılayır. 2010-cu ildən fəaliyyət göstərən təsərrüfatın əsas məqsədi şimal-qərb bölgəsində aqrobio müxtəlifliyi qorumaq, təbii kənd məhsullarını tanıtmaq və turistlərə kənd həyatını yaşatmaqdır. Burada yetişən meyvələr və bağ məhsulları həm dad, həm də aroması ilə digərlərindən fərqlənir.

Təsərrüfatın rəhbəri Etibar Nuriyev deyir ki, Azərbaycan vətəndaşları beş manat, xarici turistlər isə 10 manat ödəməklə səkkiz hektar ərazini təxminən üç saat ərzində gəzə bilərlər: "Təsərrüfat təkcə meyvə bağları ilə deyil, həmçinin quşlar, ev heyvanları və balıqları ilə də məşhurdur. Buradakı bütün məhsullar ekoloji təmiz metodlarla yetişdirilir. Turistlər meyvələri ağacdan yığıb ala bilirlər. Burada yetişən meyvə növləri digər yerlərdə tapılmır".

### "İŞÇİLƏRİN BÖYÜK ƏKSƏRİYYƏTİ QADINLARDIR"

"BioGarden"də təbiətin şəfqətini hiss etdikdən sonra Şəkinin qədim təsərrüfat sahələrindən olan ipəkçiliklə bağlı məlumat almaq üçün "Azəripək" ASC-yə yollanırıq. Burada baramadan xam ipəyin açılması, toxuculuq, boyaq-bəzək, burucu və xalça sexləri fəaliyyət göstərir. Müəssisənin sədri Anar Dadaşov deyir ki, müəssisədə hazırda 325 nəfər çalışır. Baramaaçma sexindəki işçilərin böyük əksəriyyəti isə qadınlardır: "Müəssisədə yüksək keyfiyyətli 100% təbii xam ipək, müxtəlif ipək məhsullar, həmçinin kəlağayı, şərf, çitmə və sair istehsal olunur. İstehsal edilən məhsullar xarici ölkələrə ixrac olunur".

Baramaaçma sexində 40 ildir işləyən Ceyran Eynullayeva baramanın açılmasını belə izah edir: "Əvvəl kozaları təmizləyirik, sonra isti suda yumşaldırıq ki, ipək lifləri açılıb hamar olsun. Hər baramanın ipəyə çevrilməsi diqqət və ustalıq tələb edir. Lifləri bir-birinə birləşdirəndə bilirsən ki, bu ipək həm kəlağayı, atlas, həm də xalça üçün hazırdır. Keyfiyyət həm baramanın növündən, həm də açma prosesində göstərdiyimiz diqqətdən asılıdır".

















## Nəsildən-nəslə ötürülən mədəniyyət simvolu

Şəkinin ipəkçilik ənənəsi yalnız xam ipək və parçalardan ibarət deyil. Burada hazırlanmış kəlağayılar həm mədəniyyətin, həm də sənətkarlığın nümunəsidir. Kəlağayı ipəkdən hazırlanır, üzərində min illik Şəki naxışları canlanır və hər bir detal ustaların əllərində xüsusi diqqətlə işlənir.

Kəlağayı istehsalı ilə məşğul olan sahibkar Sevinc Bayramova deyir ki, Şəki kəlağayıları həm yerli, həm də xarici bazarda böyük maraq doğurur: "Müəssisəmizin kiçik muzeyində 150-300 illik qədim kəlağayılar sərgilənir. Saralmış, lakin öz nəfəsini itirməmiş kəlağayılar Azərbaycan qadınının zərifliyini, Şəki ustalarının incəliyini bu günə daşıyır. Burada hər kəlağayı sadəcə bir aksesuar deyil, nəsildən-nəslə ötürülən bir mədəniyyət simvoludur".

### SƏNƏTKARLARIN ŞƏHƏRİ ŞƏKİ

Şəki yalnız ipək və kəlağayı ilə deyil, həm də sənətkarları ilə tanınır. Səfər çərçivəsində dulusçuluq emalatxanasına baş çəkdik. Emalatxanaya daxil olan kimi torpağın qoxusu, saxsıların parlaqlığı insanı əsrlər öncəyə aparır. Usta Əhəd Məmmədov torpağı barmaqları ilə yoğurub yeni məmulat yaratdıqca sanki yüz illik ənənəni canlandırır, jurnalistlərə məhsulların çeşidi, istifadə qaydaları və hazırlanma texnikasını nümayiş etdirir.

Şəkiyə gələn hər kəs bilir ki, "Əliəhməd" şirniyyat evindən keçmədən şəhərin dadını tam yaşamaq mümkün deyil. Halvaçı Xosrov Qafarov qat-qat incə ipək kimi halvanın çəkilməsini, şəkər şərbətinin hazırlanmasını və hər bir qatın xüsusi diqqət tələb edən mərhələlərini nümayiş etdirir. Usta deyir ki, halva yalnız dadı ilə deyil, yaradılma hekayəsi ilə də unudulmazdır.

### "YUXARI BAŞ" QORUĞU-ŞƏKİ XAN SARAYI

Səfərin son dayanacağı "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu və Şəki Xan sarayı oldu. Sarayın şəbəkə sənəti, divar rəsmlərinin poetikliyi və tikilinin ümumi simvolizmi Şəkinin həm ölkə, həm də dünya mədəni irsindəki xüsusi yerini nümayiş etdirir. Qoruqda 83 tarixi-memarlıq abidəsi var. Onların ən önəmlisi Şəki Xan sarayıdır. Bundan başqa, dövlət səviyyəsində qorunan 11 abidə - mədrəsələr, karvansaralar və tacir evləri diqqəti çəkir. Qalan 71 abidə isə yerli əhəmiyyətli tacir mülkləri, yaşayış evləri və digər tarixi tikililərdən ibarətdir.

Şəki ipək kimi incə, dağlar kimi möhkəm, halvası kimi şirin, ustalarının əlləri kimi zərifdir. Burada hər küçə bir tarixi danışır, hər sənətkar bir məktəbdir, hər yemək bir dastandır.



Fotolar: Əjdər İbrahimov/Global Photostock

# YENİTİKİLİLƏRDƏ YENİDƏN ÇIXARIŞ BÖHRANI

**Keçən illərlə müqayisədə yenitikililərdə çıxarış alınması müşkülə çevrilib. Ekspertlər bunu həm qaydaların mürəkkəbliyi, həm də MTK-ların bu prosesdə maraqlı olmaması ilə əlaqələndirirlər.**

SEVİNC ABBASOVA

Son dövrlər yeni tikililərdə yerləşən mənzillərə çıxarışların verilməsi prosesi sanki tormozlanıb. Halbuki bir neçə il əvvəl hökumətin müdaxiləsi nəticəsində bu proses sürətlənmiş və yenitikililərdəki minlərlə mənzil sürətlə qeydiyyata alınaraq sakinlərə çıxarış verilmişdi.

Maraqlıdır, bəs görəsən proses niyə zəifləyib?

### RƏQƏMLƏR NƏ DEYİR?

Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda 300 073 daşınmaz əmlak üzərində mülkiyyət hüququ qeydiyyata alınaraq çıxarışla təmin edilib.

Rəqəmləri 2024-cü ilin yanvar-oktyabr ayları ilə müqayisə etsək görərik ki, çıxarışların sayı həmin dövrdə 306 456 olub.

Statistikadan görünür ki, 2025-ci ilin göstəricisi 2024-cü ilə nisbətən aşağıdır və bu da çıxarışların verilməsində müəyyən yavaşlamaya işarə edir. Maraqlıdır ki, 2023-cü ildə ölkədə əmlakın dövlət qeydiyyatı sahəsində müsbət dinamika müşahidə olunub. Həmin ilin yanvar-oktyabr aylarında 406 180 mülkiyyət hüququ qeydiyyata alınıb ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 38,1 faiz çoxdur.

Belə görünür ki, dövlətin keçən illərdə sürətləndirdiyi proses öz tempini itirib.

### QANUNVERİCİLİYƏ YENİDƏN BAXILMASINA EHTİYAC VAR

"Azərbaycan Rieltorlar Assosiasiyası" İctimai Birliyinin icraçı direktoru Elnur Azadovun sözlərinə görə, çoxmənzilli binalara çıxarışların verilməsi prosesinin ləngiməsi qanunvericiliyə bağlı məsələdir: "Əslində 2019-cu ildən sonra bu proses xeyli sürətlənmişdi. Bunun əsas səbəbi Prezidentin müvafiq Fərmanı idi. Bu fərmana uyğun olaraq, 2020-ci ildən başlayaraq binalar sadələşdirilmiş şəkildə istismara qəbul edilirdi. Fərmanın müddəti bir il nəzərdə tutulsa da, sonrakı illərdə də tətbiq olundu. Lakin son bir ildə bu proses dayandırılıb və binalar artıq fərmanla sadələşdirilmiş qaydada istismara qəbul edilmir".

Ekspert vurğulayır ki, məsələnin həlli üçün ya fərman yenidən qüvvəyə minməli, ya da yenilənməlidir: "Vətəndaşların mülkiyyət hüququ təmin olunmalıdır. Hansı yolla? Bu artıq aidiyyəti dövlət qurumlarının işidir".




## "Bu üç sənəd kifayətdir ki, çıxarış alınsın"

Mütəxəssis çoxmənzilli binalarda ev almaq istəyən vətəndaşlar üçün bir sıra vacib məqamları da sadalayır: "Ev almadan öncə mütləq həmin binanın dövlət qeydiyyatına alınıb-alınmadığı barədə müvafiq sənədi tələb etsinlər. Əgər həmin bina dövlət qeydiyyatına alınıbsa, demək orada heç bir problem yoxdur və çıxarış əldə etmək rahat olacaq. Bəzən MTK-lar özləri də bu məsələdə maraqlı olmurlar. Sənədləri gecikdirir, maliyyə arayışlarını vermirlər. Çünki mövcud durum onlara sərf edir və əlavə qazanc əldə edirlər. Bu baxımdan, vətəndaşlar dərhal maliyyə arayışlarını, ölçü sənədləri və binanın dövlət qeydiyyatına alınması ilə bağlı qərarın surətini tələb etməlidirlər. Bu üç sənəd kifayətdir ki, Əmlak Məsələləri Dövlət Xidməti mənzilə çıxarış versin. Dövlət qeydiyyatına alınmayan binada yerləşən mənzilə isə vətəndaş istəsə belə, çıxarış almaq mümkün deyil. Məndə olan məlumata görə, hazırda təxminən 30 belə bina mövcuddur".

## "Bəzi MTK-lar torpaqları özəlləşdirməyib"

Əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə də deyir ki, Prezidentin müvafiq fərmanından sonra çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı operativ işlər aparılıb: "Demək olar ki, 200-dən artıq bina üzrə işlər sürətləndirildi və sakinlər çıxarışlarla təmin olundular. Amma çıxarış verilməyən binalar da var və onların müəyyən problemləri mövcuddur. Həmin binalar dövlət tərəfindən istismara qəbul edilməyib, çünki Fövqəladə Hallar Nazirliyinin müvafiq rəyləri təqdim olunmayıb".

Ekspert bildirir ki, digər problem torpaqla bağlıdır: "Bəzi Mənzil-Tikinti Kooperativləri binanın torpaq sahəsini özəlləşdirməyiblər. Hətta bununla bağlı bir sıra məhkəmə işləri də var. Dövlət qurumu həmin MTK-ları məhkəməyə verib və torpaq sahəsinin özəlləşdirilməsini tələb edib. Hüquqi məsələlər də problem yaradır. Baş Prokurorluq bəzi binalarda bir mənzilin bir neçə nəfərə satılması ilə bağlı işləri araşdırır. Ona görə də aidiyyəti qurumlar vətəndaşların təhlükəsizliyi baxımından bu binalara rəy vermirlər".


Elnur Azadov


Ramil Qasımzadə

### "BU PROSESDƏ 41 KOMİSSİYA RƏY VERMƏLİDİR"

Rieltor Nofəl Quliyev isə bildirir ki, son illərdə qanunvericilikdə edilən dəyişikliklər nəticəsində dövlət aktının alınması prosesi mürəkkəbləşib: "Hazırda bu prosesdə 41 komissiya rəy verməlidir və bu, ilk əsas səbəbdir. İkinci səbəb isə ondan ibarətdir ki, bir çox MTK rəhbəri çıxarışların verilməsini istəmir. Çünki bir mənzil bir neçə şəxsə satıldıqda MTK hər dəfə 3-5 min manat əldə edir, eyni zamanda çıxarışlı mənzillərin alqı-satqısı zamanı həmin ərazi üzrə dövlətə indeksləşmə əsasında vergi ödənilir".

Ekspert qeyd edir ki, prosesin yenidən sürətlənməsi üçün dövlət tərəfindən müvafiq tədbirlər görülməlidir: "MTK-lara müəyyən tövsiyələr verilməli, təhvil aktının verilməsi prosesi sürətləndirilməlidir".

# MAŞIN DA VAR, EHTİYAT HİSSƏSİ DƏ...

Çin avtomobillərinin sayı artdıqca, ehtiyat hissələrinə tələbat da artıb. Servislər artıq bu ehtiyacı ödəməyə başlayıblar. Lakin hələ də müəyyən modellərin ehtiyat hissələrini vaxtında tapmaq çətindir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycan 2 milyard 169 milyon 147,43 min ABŞ dolları dəyərində nəqliyyat vasitələri və onların hissələrini idxal edib. Bu, ötən ilin 9 ayı ilə müqayisədə 478 milyon 689 min ABŞ dolları və yaxud 28,32 % çoxdur. Doqquz ay ərzində avtomobil və onların hissələrinin idxalına çəkilən xərc Azərbaycanın ümumi idxal xərclərinin 12,94 %-ni təşkil edib.

Son vaxtlar avtomobil parkında Çin avtomobillərinin xüsusi çəkisi sürətlə artır. Lakin insanlarda narahatlıq var ki, Çin maşınlarının ehtiyat hissələrinin tapılmasında problemlər yaşana bilər. Əvvəlki dövrlərdə biz sosial şəbəkələrdə bununla bağlı şikayətlər də müşahidə etmişik. Bəs indi bu sahədə vəziyyət necədir?

### “BƏZİ ÇİN AVTOMOBİLLƏRİNİN EHTİYAT HİSSƏLƏRİNİ TAPMAQ ÇƏTİNDİR”

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının İdarə Heyətinin sədri Eyyub Əliyevin sözlərinə görə, ölkəmizdə Çin avtomobillərinin sayı artdıqca, ehtiyat hissələri çatışmazlığı problemi də yaranmağa başladı: “Ekoloji və təmiz nəqliyyat vasitələrinə edilən güzəştlərdən sonra Çin avtomobilləri, xüsusilə elektrik və hibrid modellərin sayında kifayət qədər artım müşahidə olundu. Bu da avtoparkımızın yenilənməsinə gətirib çıxardı. Lakin vacib məsələlərdən biri ehtiyat hissələri problemi idi. Təəssüf doğuran məqamlardan biri ondan ibarət idi ki, rəsmi diler olmayan, yəni fərdi şəxslər tərəfindən gətirilən bəzi Çin avtomobillərinin ehtiyat hissələrini tapmaq çətindir”.

E.Əliyev bildirdi ki, fərdi şəxslər bu problemi aradan qaldırmaq üçün ehtiyat hissələri də idxal edirlər: “Rəsmi distribütorların salonlarında satılan avtomobillərin ehtiyat hissələri həmin şirkətlərin servis mərkəzlərində mövcuddur. Bundan əlavə, paralel idxalın və ölkəmizə gətirilən avtomobillərin sayının çoxalmasını nəzərə alaraq, kənar şəxslər tərəfindən də ehtiyat hissələri idxal edilir. Məsələn, müxtəlif şəbəkə mağazaları və ya fərdi sahibkarlar Çin avtomobillərinin ehtiyat hissələrini ölkəyə gətirirlər. Necə ki, əvvəllər digər avtomobillər üçün də rəsmi servisdən kənar ehtiyat hissələri gətirilirdi. Sözsüz ki, bu ehtiyat hissələri orijinal olmur. Lakin avtomobili zəmanətsiz alan şəxslər çarəsiz qalaraq həmin hissələrdən istifadə edirlər”.

### “RƏSMİ SERVİS MƏRKƏZLƏRİNDƏN ASANLIQLA TAPILIR”

Sədrin fikrincə, hazırda əksər ehtiyat hissələrini rəsmi servis mərkəzlərindən asanlıqla tapmaq mümkündür: “İki il öncəyə qədər bəzi avtomobillərin ehtiyat hissələrinin tapılmasında müəyyən çətinliklər var idi. Lakin hazırda rəsmi distribütorlarda bu vəziyyət xeyli yaxşılaşıb. Əlbəttə, bütün markaların ehtiyat hissələri mövcud deyil. Amma 80-90 faiz ehtiyat hissələri rəsmi servis mağazalarının anbarlarında olur. Rəsmi xətlə gətirilən avtomobillərin ehtiyat hissələrini rahatlıqla tapmaq mümkündür. Həm rəsmi servis xidmətləri, həm də kənar şəxslər tərəfindən ehtiyat hissələrinin gətirilməsi nəticəsində demək olar ki, Çin avtomobillərində ehtiyat hissələri problemi aradan qalxmaqdadır. Hətta rəsmi servis mərkəzlərindən kənar böyük servis mərkəzləri də yaranıb ki, onlar Çin avtomobillərinə texniki xidmət göstərirlər. Çin avtomobilləri bazarda artan tələblə əlaqədar hərəkətliliyin əsas iştira kçısına çevrilməkdədir”.




Eyyub Əliyev

İlkin Mustafayev

### “TƏLƏB ARTDIQCA, EHTİYAT HİSSƏLƏRİ DƏ TƏMİN OLUNUR”

Elektromobil bloqeri İlkin Mustafayev də düşünür ki, avtomobillərə tələbat artdıqca, bu problem həll edilir: “Hazırda ehtiyat hissələri ilə bağlı ciddi problem yaşanılmır. Bir müddət Çindən idxal edilən avtomobillərdə müəyyən problemlər yaşanılsa da, artıq bu avtomobillərin kütləviliyi səbəbindən sahibkarlar və servis məntəqələri hissələrin təmini və idxalı məsələsini aktuallaşdırır. Çindən idxal edilən avtomobillər üçün də ehtiyat hissələri artıq normaya düşür. Təbii ki, hələ də hissələri tapılmayan və ya idxalını 2-3 ay gözləməli olan modellər var. Çin markalı avtomobillərdə qısa müddətdə dizayn və digər köklü dəyişiklik edildiyi üçün bəzən bu problem daha aktual olur”.

İ.Mustafayevin sözlərinə görə, əvvəlki illərlə müqayisədə ehtiyat hissələri bazarında Çin maşınları üzrə canlanma olduğu ortadadır: “Avtomobillərin sayının artması hətta digər markalara – Avropa, ABŞ və ya Koreya markalarına xidmət göstərən servislərin artıq Çin maşınlarına da xidmət göstərməyə başlamasına gətirib çıxara bilir. Ötən illə müqayisə etsək, bu bazar artıq dolmağa başlayıb. Çünki Çin maşınları nə qədər çoxalsa, onların ehtiyat hissələrinə tələbat da bir o qədər artır. Servislər və ehtiyat hissələri idxal edən sahibkarlar da bu tələbatı nəzərə alaraq, detalların idxalını həyata keçirirlər”.






# DÜNYANIN ƏN QARLI VƏ SOYUQ PAYTAXTI

Ottava həm qədim memarlığı sevənlər, həm də müasir incəsənətin pərəstişkarları üçün maraqlı şəhərdir. Paytaxt çoxsaylı yaşıl parkları, insanların zövq ala biləcəyi mənzərəli əraziləri, maraqlı ekskursiyaları ilə öyünür.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ottava Kanadanın siyasi, mədəni və təhsil mərkəzidir. Kraliça Viktoriya bu şəhəri ingilisdilli Ontario ilə fransızdilli Kvebekin ortasında "kompromis" variant kimi seçib. Ottava dünya paytaxtları arasında ən qarlı və üçüncü soyuq şəhərdir.Ottava meqapolis Toronto və çoxmədəniyyətli Montrealın kölgəsində qalır və bir çoxları üçün sadəcə diplomatik həyatın mərkəzidir. Kanadalılar Ottavanı darıxdırıcı hesab etsələr də, turistlər onu sevgi ilə "Kiçik Miss Ottava" adlandırırlar.

Ottava həm qədim memarlığı sevənlər, həm də müasir incəsənətin pərəstişkarları üçün maraqlı şəhərdir. Paytaxt çoxsaylı yaşıl parkları, insanların zövq ala biləcəyi mənzərəli əraziləri, maraqlı ekskursiyaları ilə öyünür. İngilis və fransızdilli şəhərdə yerlilər turistləri "Bonjour, hello" deyə salamlayır və əhvallarını da soruşurlar.

### "AĞYAXALIQLILARIN ŞƏHƏRİ"

Müasir Ottava ilk baxışdan ciddi təsir bağışlayır. Şəhərə səfər edəndə dostlarım "ağyaxalıqlıların şəhərinə gedirsən" dedilər. Hazırkı Ottava gənc əhalisi olan bir şəhərdir. Sakinlərinin təxminən dörddə biri Kanadadan kənarda anadan olub. Əhalisinin demək olar ki, yarısının yaşı 35-dən aşağıdır və son 200 ildə buraya gələn avropalıların nəsilləridir.

Paytaxt Kanadada ən yüksək təhsil səviyyəsinə malikdir. Vətəndaşlarının yarıdan çoxu dərəcə, diplom və ya sertifikata malikdir. Ottavada müxtəlif səviyyəli təhsil müəssisələri fəaliyyət göstərir. Paytaxt əhalisi hər il dünyanın hər yerindən buraya gələn tələbələr hesabına xeyli artır.

### CİNAYƏTKARLIQ SƏVİYYƏSİ ÇOX AŞAĞIDIR

Ottava ölkədə dördüncü, həyat keyfiyyətinə görə isə dünyada altıncı ən böyük şəhərdir. Bura beynəlxalq mədəni, iqtisadi və texnoloji mərkəzdir. Bir çox qlobal şirkətlər burada tədqiqat mərkəzləri və ofislər açıblar. Ottavanın resurslara və istehsala əsaslanmayan məşğulluq buferi var. Şəhər iqtisadi cəhətdən sabitdir.

Şəhər turunda bələdçi məlumat verdi ki, Ottavada Kanadanın əsas şəhərlərinə nisbətən cinayətkarlıq səviyyəsi çox aşağıdır. "Üstəlik, cinayət hadisələri ümumiyyətlə azalır. Pik saatlar böyük şəhərlərdə tapa biləcəyiniz tıxaclara burada rast gəlməzsiniz. Mənzil qiymətləri münasibdir. Vankuver, Toronto və ya Kalqari ilə müqayisədə burada kirayə üçün daha az pul ödəyəcəksiniz. Daşınmaz əmlak qiymətləri də nisbətən aşağıdır".

Ottavanın küçələrində Torontoda olduğu kimi, işsiz, evsiz insanlar gözə dəymir. Burada arxayın, yaşlı turistlərdən başqa hər kəs məşğul kimi görünür.












## KÖÇMƏYƏ DƏYƏRMİ?

"Ottavaya köçməyə dəyərmi?" Bu sual digər şəhərlərə köç edən immiqrantları çox düşündürür. Sorğulara verilən cavab isə belədir: "Yaşamaq üçün nə istədiyinizdən asılıdır. Təbiətdən zövq alırsınızsa və ya ailə qurmaq üçün gözəl, yaşıl bir şəhər axtarırsınızsa, Ottava yaxşı seçimdir. Lakin gənclər bu şəhəri bir az darıxdırıcı hesab edə bilərlər. Montreal, Toronto və ya Vankuver kimi daha kosmopolit şəhərlərə öyrəşənlərə Ottavadakı həyat monoton görünər. Bu, yəqin ki, Ottavanın ən böyük çatışmazlığıdır. Əlbəttə ki, şəhərdə teatrlar, qalereyalar, klublar, restoranlar və canlı musiqi var, amma böyük şəhərlərdəki qədər çox deyil". Ottavanın qışının sərtliyi də bura köçmək istəyən insanları ehtiyatlandırır. Mart ayında hələ də qar yağır, temperatur 0°C-dən yuxarı qalxmır. Soyuğa baxmayaraq, insanlar Yeni il ərəfəsində bayram əhval-ruhiyyəsi və sehrli atmosfer üçün buraya gəlirlər. Bu şəhərdə iş tapmaq üçün ingilis və fransız dillərinini eyni səviyyədə bilmək önəmlidir. Ottavadakı bir çox iş hər iki rəsmi dilin biliyini tələb edir. Uşaqlar məktəbdə fransız dilini öyrənirlər, buna görə də yaxşı bir başlanğıca sahibdirlər. Yalnız ingilis dilində danışan immiqrantlar iş tapmaqda çətinlik çəkə bilərlər.

Ottavada metro yoxdur. Sakinlər də, turistlər də ictimai nəqliyyatdan şikayətlənirlər. Şəhər mərkəzinə və geri səyahət etmək əlverişli olsa da, başqa şəhərlərə səyahət edənlər üçün vəziyyət pisləşir. Nəqliyyat şəbəkəsi tədricən genişləndirilir və qurulur, lakin hələ də mükəmməl deyil. Məsələn, yerli sakin deyilsənsə və aylıq biletin və ya güzəştin yoxdursa, bank kartı ilə ödəmə çətinliyi var.

### "QIŞ NAĞILI", LALƏ FESTİVALI, PAYIZIN RƏNGİ

Yüksək inkişaf etmiş infrastruktura malik, rahat və mənzərəli Kanada paytaxtı dünyanın hər yerindən gələn turistlər üçün cəlbedicidir. Şəhər velosiped sevənlər üçün cənnətdir. Şəhərdə onlar üçün gözəl yollar var. Bunlardan ən uzunu və gözəli Rideau Trail-dir.

Ottava ölkənin əsas artefakt kolleksiyalarına ev sahibliyi edir. Ən populyarlar muzeylər - Kanada Hərb Muzeyi, Kanada Milli Qalereyası, Kanada Təbiət Muzeyi, Kanada Aviasiya və Kosmik Muzeyi, Soyuq Müharibə Muzeyi və Kanada Elm və Texnologiya Muzeyidir. Milli İncəsənət Qalereyasında Dali, Andy Varhol, Klod Mone və Pikassonun əbədi əsərləri də daxil olmaqla, yüzlərlə dünya heykəltəraşlıq və rəsm əsəri nümayiş olunur. Turistlər Ottavaya qışda Beynəlxalq Xokkey Festivalı və dünyaca məşhur "Qış nağılı"na baxmağa, yazda "Lalə" festivalında iştirak etməyə, yayda şəhər mərkəzində gəzən bütün hindli qəbilələrini gözləri ilə görməyə, payızda sari, qırmızı ağcaqayın yarpaqlarına tamaşa etmək üçün gəlirlər.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
6 DEKABR ŞƏNBƏ 2025
www.kaspi.az

**“Arsenal” üçün mövsüm çox yaxşı keçir. Premyer Liqada “Mançester Siti”, “Çelsi” və “Liverpul”un qeyri-stabil çıxışları komandanın zirvədə rahat yerləşməsinə imkan yaradıb. Lakin azarkeşlər də, mütəxəssislər də çempionluq yolunun asan olmayacağı fikrindədirlər.**

# “TOPÇULAR”IN FANTASTİK ÇIXIŞI




Avropada futbol mövsümünün ən diqqətçəkən performansını İngiltərənin “Arsenal” klubu göstərir. London təmsilçisi bu il həm nəticələri, həm oyun üslubunun yetkinliyi ilə fərqlənir. “Topçular” İngiltərə Premyer Liqası ilə yanaşı, Çempionlar Liqasında da bu ana qədər qarşısıalınmazdır.

### ARTETA İLƏ YENİ ERA

Əfsanəvi Arsen Vengerdən sonra “Arsenal” baş məşqçi postuna Unay Emerini gətirdi. İspaniyalı mütəxəssis klub tarixində Böyük Britaniyadan kənardan olan ilk çalışdırıcı idi. Onun rəhbərliyi altında komanda Avropa Liqasında final oynasa da, Premyer Liqada nəticələrin qənaətbəxş olmaması yolların ayrılmasına səbəb oldu. Emeridən sonra Frederik Lyunberq qısa müddət komandaya rəhbərlik etdi.

2019-cu ilin dekabrında isə klub tarixində yeni səhifə açıldı. Bu dəfə “topçular” komandanın keçmiş kapitanı Mikel Artetaya tapşırıldı. Onun startı elə də uğurlu alınmadı. Komanda mövsümü 8-ci pillədə başa vurdu. Bu isə 1994/95 mövsümündən sonrakı ən pis nəticəsi idi. Bununla belə, komanda finalda “Çelsi”ni məğlub edərək tarixində 14-cü dəfə İngiltərə Kubokunu qazandı. Növbəti mövsüm komanda yenidən 8-ci oldu və bununla 26 il ərzində ilk dəfə avrokuboklardan kənar qaldı. Azarkeşlərin narazılığına baxmayaraq, rəhbərlik Artetanı postunda saxlamaq qərarı verdi.

Növbəti mövsüm Mikel Arteta Premyer Liqanın ən gənc komandasını formalaşdırdı. Komanda həmin mövsümü Premyer Liqada beşinci sırada tamamladı və Avropa Liqasına vəsiqə əldə etdi. 2022–23 mövsümünə gəldikdə, “Arsenal” 84 xalla mövsümü ikinci pillədə başa vuraraq yalnız “Mançester Siti”dən geri qaldı. Bu, uzun fasilədən sonra komandanın Çempionlar Liqasına qayıtması demək idi. Əslində həmin il “Arsenal” çempionluğa əsas namizəd idi. Təsadüfi deyil ki, mövsüm onların liqanı qazanmadan ən çox turu lider kimi keçirdikləri rekordla yadda qaldı.

2023-2024 mövsümündə komanda Premyer Liqada yenidən ikinci oldu, ancaq əvvəlki mövsümlə müqayisədə nəticəsini yaxşılaşdıraraq 89 xal topladı. Ötən mövsüm Çempionlar Liqasında yarımfinala qədər irəliləyən “Arsenal” burada gələcək çempion PSJ-yə ümumi hesabla 1:3 uduzub turniri tərk etdi. Premyer Liqada isə üçüncü mövsüm ardıcıl olaraq “Arsenal” Premyer Liqanı ikinci pillədə başa vurdu - bu dəfə onlar yalnız “Liverpul”dan geri qaldılar.

## Ağıllı və cəsarətli transfer siyasəti

“Arsenal” üçün 2025/26 mövsümü ideal keçir. Komanda Premyer Liqada 33 xalla vahid liderdir. 14 oyunun cəmi birində məğlub olub, bu matçlarda ümumilikdə 27 qol vuran kollektiv qapısında cəmi yeddi top görüb. Çempionlar Liqası göstəriciləri isə daha da parlaqdır. Komanda beş turdan sonra Liqa mərhələsinə inamla başçılıq edir. Bütün oyunlarda qələbə qazanan London təmsilçisi 15 xalla vahid liderdir. Beş qarşılaşmada rəqib qapılarına 14 dəfə yol tapan komanda cəmi bir qol buraxmaqla, Avropa səhnəsində də müdafiəsinin etibarlılığını göstərib. Düzdür, hələ qarşıda daha üç oyun var, lakin heç kim komandanın turnir cədvəlinin ilk “8-liy”ində yer alıb birbaşa növbəti mərhələyə yüksələcəyinə şübhə etmir.

“Arsenal”ın uğurlu çıxışının əsas səbəbləri kimi Mikel Artetanın illərlə tətbiq etdiyi oyun sistemi və uğurlu transfer siyasəti göstərilir. Klub xüsusilə transferlərdə ehtiyatlı davranışı ilə diqqət çəkir. Premyer Liqa təmsilçiləri hər il yeni oyunçuların alınmasına böyük məbləğlər xərcləsələr də, “Arsenal” bu trendə qoşulmadı. Artıq qeyd etdiyimiz kimi, “Arsenal” öncə gəncləşdirmə prosesini həyata keçirdi. Daha sonra komanda çatışmazlıqlar olan mövqelərə dəqiq transferlərlə boşluqları doldurmağa başladı. Klub ulduz kolleksiyası yığmaq əvəzinə, həqiqətən ehtiyac olan və sistemə uyğun oyunçulara üz tutdu.

Transfer fəaliyyətində bu mövsümü daha cəsarətli hesab etmək lazımdır. Viktor Qyökereş, Martin Zubimendi, Ebereçi Eze, Noni Madueke transferlərinə böyük məbləğlər xərcləndi. Bu, klubun mövsümə çempionluq iddiaları ilə başlayacağının göstəricisi idi. Hazırda “Arsenal” zədə problemlərinə ən yaxşı reaksiya verən klublardan biridir. Çünki hər mövqe üzrə kifayət qədər yüksək səviyyəli əvəzedicilər var.

## Ən yaxşı hücum müdafiədir?

Mikel Arteta məşqçi kimi Pep Qvardiolanın tələbəsi hesab olunur. Ancaq onun oyun üslubu müəllimindən fərqlidir. İspaniyalı mütəxəssisin “Arsenal”ı hücumda effektivdir, lakin daha çox müdafiəsinin etibarlılığı ilə diqqət çəkir. Adətən, futbolda ən yaxşı müdafiənin hücum olduğunu deyirlər, lakin “Arsenal”da bu, bir qədər fərqlidir. Komanda lazım olanda rəqiblərə böyük təzyiq göstərir, lakin ümumən daha təmkinli oynamağa üstünlük verir. Müasir futbol trendlərindən nə qədər kənar olsa da, Arteta müdafiənin cinahlarında da faktiki mərkəz müdafiəçilərinə üstünlük verir. Julian Timber və Rikardo Kalafyori əslində stoperdirlər. Lakin onların hücum planındakı axsaqlıqlarını orta və irəli xətt oyunçuları kompensasiya edə bilirlər.

Komandanın oyun üslubunun əvəzedilməz hissələrindən biri standart vəziyyətlərdir. Arteta bunu qorxulu silaha çevirib. Bəzən mütəxəssislər komandanı buna görə tənqid edirlər. Həqiqətən, bir sıra qarşılaşmalarda standart vəziyyətlərsiz komandanın rəqib müdafiəsini yara bilmədiyi görünüb. Lakin bunun özü də bir oyun üslubudur və komanda kifayət qədər yaxşı icra etməyi bacarır.

“Arsenal” üçün mövsüm çox yaxşı keçir. Premyer Liqada “Mançester Siti”, “Çelsi” və “Liverpul”un qeyri-stabil çıxışları komandanın zirvədə rahat yerləşməsinə imkan yaradıb. Lakin azarkeşlər də, mütəxəssislər də çempionluq yolunun asan olmayacağı fikrindədirlər. Xüsusən də mövzu “Arsenal”dırsa. Son illərdə bir neçə dəfə komanda mövsümün uzun hissəsini lider kimi keçirsə də, yekunda rəqabəti məğlub başa vurub. Hazırda hər şey paytaxt klubu üçün yaxşı davam edir, lakin mövsümün yekununda nə olacağını indidən proqnozlaşdırmaq çətindir. O da dəqiqdir ki, “Arsenal” əvvəlki illərlə müqayisədə indi daha möhkəm kollektiv təsiri bağışlayır, daha təşkilatlanmışdır və daha güclüdür.